**YUSİF NAZİM**

# Şou dünya

*(satiralar, sevgi və digər mövzularda yazılmış şeirlər, aforizmlər)*

**BAKI-2014**

Bu kitab cəmiyyətdəki "gözəllik"lərə güzgü tutan satirik şeirlərdən, sevgi və digər mövzularda yazılmış nəzmlərdən və müəllifin dünyaya indiki baxış tərzini əks etdirən aforizmlərindən ibarətdir. Kitab **küt**-lə üçün nəzərdə tutulmuşdur. **Oxumaq məsləhət deyil…**

ISBN 978-9952-494-10-5

© Yusif Nazim. 2014
© "OL" MMC. 2014

## Kitabın içindəkilər


# Ön söz ........................................8

# Satirik şeirlər ........................................11

Müəllifin əlyazmasının surəti ........................................12
Təzə ........................................13
Hacı ........................................14
Əziz kreslo ........................................15
Məmişin tribunadan etirafı ........................................17
Super eşşək ........................................18
Bayraq nədi bilməm ........................................21
Din şou ........................................22
Əzrayıla təklif ........................................24
Pulun sehri ........................................26
Yol polisi Məmiş dayı ........................................28
Küt diş ........................................31
Dioloq ........................................32
Quş ........................................33
Dıbışın təəccübü ........................................35
Həkim ........................................38
Xarakter ........................................38
Milli söyüş ........................................39
Şəkil ........................................39
"Cəh-cəh", "cik-cik" ........................................40
Şən qoyun ........................................40
Bacarsan ........................................41
Müğənni Mətiş ........................................42
Hacı Miriş deyir ki, ........................................44

Katibə ilə müdirin dioloqu ....................................................46
Xiyar ..........................................................................................48
Dəbdən düşüb ............................................................................51
Bizdən-bizə ................................................................................52
Səmimi etiraf ..............................................................................53
Yaşa, dövran ..............................................................................55
Sarıyır bizi .................................................................................56
Şou-biznes .................................................................................57
Dilləşmə ....................................................................................63
Kef eylə .....................................................................................65
Qoyun .......................................................................................66
Bezən də var ..............................................................................68
Vətən .........................................................................................69
Bakı ..........................................................................................70
Zaman, bağışla ...........................................................................71
Vəzifə ........................................................................................73
"Sadə" tanışım ...........................................................................74
Yaltağın oğluna nəsihəti .............................................................75
Keçmiş məmurun vəzifəyə keçmiş oğluna nəsihəti .........77

**Sevgi və digər mövzularda yazılmış şeirlər** ....................................79

İnsan bu dünyada hər şeydən bezir ..................................81
Yaşa bu ömrü .............................................................................83
Vida ..........................................................................................84
Hədiyyə .....................................................................................85
Son nəfəsdə ...............................................................................86
Sirr ............................................................................................87
Narahat ruh ...............................................................................88
Gəl görüşək ...............................................................................89
"Utancaq" həris ..........................................................................91
Bilən olmasın ............................................................................92

Nur ........................................................................................93
Necə bitər .............................................................................95
Sadəlik ..................................................................................96
Sönmüş ocaq .........................................................................97
Yaxşıdır .................................................................................98
Səbəbsiz deyil .......................................................................99
Ya rəb, şükür verdiyinə .....................................................100
Bizim də qismətimiz bu ....................................................101
Nə olar? ...............................................................................102
Mənə yaraşmır ...................................................................103
Bəyaz qan ............................................................................104
Söhbət ..................................................................................105
Ağlamaq da gözəldir .........................................................106
Qarabuğdayı aşiq ...............................................................107
Qənaət olmayanda .............................................................108
Kaş ........................................................................................109
Sevgim ..................................................................................110
Yaşım çatmır .......................................................................111
Yazan deyiləm ....................................................................112
Ey ədavət .............................................................................113
Vaxt ......................................................................................115
Bağça ....................................................................................115
İtirsin ...................................................................................115
Fikir vermə .........................................................................116
Çəkmə ..................................................................................116
İstəmədən ...........................................................................116
Qələt .....................................................................................117
İncimə ..................................................................................117
Sən ........................................................................................117
İz ...........................................................................................118
Günahkar .............................................................................118
Vəfalı ...................................................................................118
Bir ömür ..............................................................................119
Yaşa ......................................................................................119

Güzgü ........................................................................119
Sancaq .......................................................................120
İzn verməræm ..............................................................120
Dustaq .......................................................................120
Gözlər ........................................................................121
İnsanam ......................................................................121
Bir dəfə .......................................................................121
Baxsın ........................................................................122
Çünki .........................................................................122
Unudulmuş ..................................................................122
Tənha qəbir .................................................................123
Vəfalı .........................................................................123
Gülən deyilik ...............................................................123
Gəldik ........................................................................124
Təzad .........................................................................124
Etiraf .........................................................................124
???? ...........................................................................125
Arzu ...........................................................................125
Qış gecəsi ....................................................................125
Qisas ..........................................................................126
Cənazə ........................................................................126
Qovğa .........................................................................126
İstiqamət .....................................................................127
Əhsən o şəxsə ...............................................................127
Filosof ........................................................................127
Təzə ilham ...................................................................128
Gözümüz aydın .............................................................128
Ağacın hissi .................................................................128
Dərdimiz .....................................................................129
Şükür sənə, ey İlahi ......................................................129
Ayaq və fikir ................................................................129
Qəmsiz yaşamaq ...........................................................130
Qiymət .......................................................................130
Məhəbbət ....................................................................130

Başın qiyməti ..............................................................131
Yenilik ..............................................................131
Dəyişdik ..............................................................131
Əzizlə ..............................................................132
Əzizlənmək ..............................................................132
Yoxluq ..............................................................132
Tıqqıltı ..............................................................133
Qorxu ..............................................................133
Gərəksiz ..............................................................133
Həmdəm ..............................................................134
Xatirə ..............................................................134
Gözəl ..............................................................134
8 mart ..............................................................135
Xoşbəxtlik ..............................................................135
Aqibət ..............................................................135
İnsaf ..............................................................136
Varlı ..............................................................136
Bilmədik bunu ..............................................................136
Məsləhət ..............................................................137
Sevgimi?! ..............................................................137
Sevmişəm ..............................................................137
Yetər ..............................................................138
Yaşamaq ..............................................................138
Vaxt ..............................................................138

**Aforizmlər** ..............................................................139

# *Ön söz*

## Ənənəvi yenilikçi...

Azərbaycan ədəbiyyat tarixi Azərbaycan tarixindən daha qədimdir. Azərbaycanın ədəbiyyat əsgərləri də, Azərbaycan əsgərindən daha yaddaşlıdır. Yusif Nazim mənim fikrimcə, gerçək Azərbaycan ədəbiyyatına aid əsgərdir. Onun sözü, təfəkkürü, gördüklərinə və düşündüklərinə poetik yanaşması, ədəbiyyat tarixi kanonlarından kənar deyil. Mən, ənənəni anlamayan yenilikçini, yeniliyi anlamayan ənənəçi qədər anlamıram. Şirvan şeir təfəkkürü üç mühüm əxlaq üstə köklənib. Yusif Nazim Mənsur Həllac əxlaqlı Nəsimi yolunu deyil, Nəsiminin doğma qardaşı olan Şah Xəndanın yolunu gedənlərdəndir. Soyuq başlı, ironik, sufi rəmziliklərindən və romantikasından kənar, ortidoksal islam dəyərləri içində öz sərt baxışını formalaşdırmış Seyid Əzimin, Sabirin davamçısıdır. Bu yol əslində şairə gül deyil, güllə gətirən yoldur. Bu yol əslində şairi şair deyil, vətəndaş edən yoldur. Mən rəhmətlik Baba Pünhanın kitabına ön sözləri yazanda da, onun əslində bu günlərə dözməyəcəyini bilirdim. Yusif Nazimin gördüklərinə dözüb-dözməyəcəyini hələ bilmirəm. Onun şeiri kimi ömrü də, görəcəkləri də hələ mənim üçün də onun kimi qabaqdadır. Amma onun ilk qələm təcrübələrindən duyduğum nəfəs, təhkiyə, onlara münasibət mənə tanışdır. Və doğmadır.

Yusif Nazim sağlam ayaq üstədir. Nə yazdığını bilir. Şeirin təhlili əslində daldan atılan daş kimidir. Nə Yusif bir də o şeiri yazdığı ovqata qayıdan deyil, nə də mən o ovqatı təkrar yaşayıb, olduğu kimi onun yazdığı şeiri anlaya bilərəm. Ona sadəcə, tövsiyəm bu ola bilər ki, siyasətə, qəzet həyasızlığına, bloger bəsitliyinə uyğunlaşmadan, əlində olan kor baltası ilə ağacı baltalamağında olsun. Onsuz da biz, o ağacı kəsə bilməyəcəyik. O ağac çox qalın və keyfiyyətsizdir. O ağac çox nadan və çox hissiyatsızdır. O əlimizdəki balta isə daha çox bizim özümüzə lazımdır. O balta əlimizdə olmayanda, biz də oluruq bəzilərinin tayı. Yusif Nazim ənənədə olan və sabaha dünəni çıxaran bir şairdir. Açın qapıları, o gəlir....

***Orxan Fikrətoğlu***

# Satirik şeirlər

Yusif dövr eyləyir düz orbitində,
Kədər çevrəsində, söz orbitində.
Dünya fırlandıqca öz orbitində,
Fələk barmağına sarıyır bizi.

# TƏZƏ

Sən geri qaldın, bala, dövran təzə,
Bir nəzər et, hər tərəf, hər yan təzə.

Leylidi, Məcnundu, bular köhnəlib,
Eşqi - məhəbbət təzə, canan təzə.

Ar nədi, qeyrət nədi, imicdi bu,
Təzə əsr, qız təzə, oğlan təzə.

Vağzalı medlinnidir, ay bəxtəvər,
Bəylə gəlin vurmağa şampan təzə.

Bir fərədən hər yumurta başqa cür,
İndi xoruzlar da verir ban təzə.

Aptekində alverinin xətrinə,
Hər nə gəldi yaz, de: "bu dərman təzə".

Şousevər olmuş, nə gözəl millətim!
Verliş şoudur, baxın ekran təzə.

Çıx TV-də sən yenə meydan sula,
Yaltaq həməndirsə də, ünvan təzə.

İndi papış yox, geyinir dikdaban,
Peyda olub dövrana şeytan təzə.

Saymırıq israfçılığı biz, haram,
Molla müasirdi, çün ehsan təzə.

Bəsdi lağ etdin bizə, Yusif, yetər,
Bir dəfəlik qan ki, bu dövran təzə.

***16 iyul 2010***

# HACI




Doydur çörəyə möhtacı,
Doydurmaq savabdır acı.
Məmiş, sən də getdin haca,
Ad naminə oldun hacı.

Cəbiş hacı, Məmiş hacı,
Kamış hacı, Təmiş hacı.
Sən də, Yusif, haca get - gəl,
Ol bunlara "qəmiş hacı".

*10 yanvar 2010*

# ƏZİZ KRESLO

*Bir məmurun dilindən*




Ay mənim hörmətim, şanım - şöhrətim,
Necə də rahatsan mənə, can ustul.
İllərdir vəzifə başındayam mən,
Ay mənim yanıma yapışqan ustul.

Nə yaxşı sən varsan, əziz kreslo,
Yoxsa, saymazdılar heç adam məni.
Savad yox, nitqim yox, başım boşsa da,
Barı, sayan varmı heç avam məni?!

Ağzıma nə gəldi danışsam belə,
Deyən olmadı ki, sərəydi, səydi.
Hər ad günlərində, hər şən məclisdə,
Badələr uzanıb badəmə dəydi.

Yaltaqlar dedilər: - mərhəmətlisən;
Xəbər bilməsəm də, bir ac yetimdən.
Əzrayıl canımı üstündə alsın,
Cənazəm, kaş, çıxa kabinetimdən!

Sevgili vəzifəm, aşiqəm sənə,
Sənin həsrətinə dözə bilmərəm.
Sənsiz xalq içində, millət içində,
Axı üzüm yoxdu, gəzə bilmərəm!

İşdən çıxan kimi deyəcək çoxu:
-Bu öz güzəranın gözəlləşdirib.
Mən eşşək minsəm də, qonşum deyəcək:
-Xalqın eşşəyidir, özəlləşdirib.

***28 fevral 2011***

## MƏMİŞİN TRİBUNADAN ETİRAFI



Ay mənim uy millətim,
Uy mənim, ay millətim!

Mən ki nazir Məmişəm,
Deyirəm və demişəm;
Xalqın gözü önündə,
Malın, mülkün yemişəm.

Xalqım çəkər zilləti,
Gəl ki dillənməz qəti.
Mənim də insafım yox,
Hərləmərəm milləti.

Xiyar tağa söykənib,
Bağban bağa söykənib.
Mən xalqa arxayınam,
Dalım dağa söykənib.

Pətəkdəki balımdan,
Həm mülkümdən, malımdan,
Xalqım, sənə ümidəm,
Muğayət ol dalımdan.

***5 yanvar 2011***

## SUPER EŞŞƏK

*(Satira - həcv)*



Eşşək oğlu atdı mənə,
Dedi: "bəs bu atdı mənə".
Bu eşşəyi satdı mənə,
Bu eşşək də ancaq yatır,
Yaxınlaşdın, şıllaq atır.

Məmmədhəsən mindi səni,
Mən minərəm indi səni.
Ay eşşək, nədəndi səni,
Harda oldu, çatan minir,
Alan minir, satan minir?

Salam versək, almayanı,
Salam yada salmayanı,
Mərifəti olmayanı,
Neyçün oxşadırıq sənə?
Bu, çox maraqlıdır mənə!

İşləyirsən qış - sazaqda,
Sərfəlisən yanacaqda,
Vallah, eşşək, qanacaqda,
Sən nadandan ədəblisən,
Çox insandan ədəblisən.

Sanma ölçüb - biçməz eşşək,
Batan yerdən keçməz eşşək.
Varlı - kasıb seçməz eşşək,
Hörməti var insanlığa,
İnsan, düşün bir anlığa.

Eşşək ətin satan da var,
Xalqa bu cür atan da var.
Bu iş üstə "yatan" da var,
Sən deyilsən, eşşək odur,
Sən ulaqsan, adın budur.

O rüşvətxor Məmiş bəyin,
Adın Məmiş eşşək deyin.
Bu eşşəklə o eşşəyin,
Bəs görəsən fərqi nədir?
Bu yorğadır, o "bərk" gedir.

Gözlərin göyçəkdi sənin,
Qulaqların şəkdi sənin,
Gözəlliyin təkdi sənin,
Gözəlliyi duyan gərək,
Ceyran nədir, yaxşı görək!

Gözəlliyin marağına,
Çoxu düşüb sorağına.
Baxıb sənin dodağına,
Dodaq uzadıbdı çoxu,
Oxu, eşşək, sən də oxu!

Sənə məəttəl qalmışam mən,
"Ulduz" olmamısan nədən?!
Ay eşşək, çox müğənnidən,
Çox yaxşıdır səsin sənin,
Bu ad elə bəsin sənin.

Eşşək, uyğunlaş dövrana,
Sabahdan sən gir meydana,
Soncuqlayıb çıx ekrana,
Sən də ol bir "ulduz" eşşək,
Gözü göyçək, qulağı şək.

Salonlarda "abırlaşsan",
Sən sponsurla curlaşsan,
Klip çəkib məhşurlaşsan,
Onda sevər millət səni,
"Ulduz"ları sevir yəni.

İntizarda qoyma bizi,
Hamı soraqlayır sizi.
Çıx vidə sal səhnəmizi,
Abrımıza bir pərdə çək,
Onda deyim: - Super eşşək.

Bacarsan, dövranla barış,
Qoşul bizə, qayna - qarış.
Tazə dövr, tazə yarış,
SMS - nən seç eşşəyi,
Yusif, at al, keç eşşəyi.

***2009***

## BAYRAQ NƏDİ BİLMƏM

*Bayrağımızdakı üç rəngin mənasın bilməyən*
*bir vəzifə sahibinin dilindən*

“Mən dərd nədi, qəm - qüssə nə, möhnət nədi bilməm,
Hazır yediyimdəndi ki, zəhmət nədi bilməm.

Əvvəl düşünərdim nədi kasib, nədi yazıq,
Mən məmur olandan sora, millət nədi bilməm.

Arsız yaşamaq canə xeyirmiş deməmişkən,
Rahətdi canım, mən daha qeyrət nədi bilməm.

Mən getmişəm əsgər, nədi xidmət bunu billəm,
Öz xalqına kabnetdəki xidmət nədi bilməm.

Bir bax papana, gör necə korrupsionerdir!
Sən söyləmisən: - mən hələ rüşvət nədi bilməm?

Ey kimsə, mənə söyləmə: - sən gəl, savab iş gör...
Mən pul qazanım, yoxsa ki, rəhmət? Nədi bilməm!

Cənnət də bu dünyadə, cəhənnəm də mənimçün,
Boş şeydi, cəhənnəm nə, ya cənnət nədi bilməm.

Min bir gözəlim var, hanı sevməkdə mənimtək?
Sevmək vətəni?! Yox, bunu, əlbət, nədi bilməm”.

Bir məmura sordum: - nədi bayraqdakı məna?
Yusif, - dedi: “bayraq nədi, hörmət nədi bilməm!”.

***9 may 2011***

# DİN ŞOU




Namaz qılanların çoxalıb sayı,
Haqqa tapınanlar az-azdır, amma.
Hər haca gedənin, hacdan gələnin,
Nəfsi paklaşıbmı?
Tövbə inanma!

Quranı pul ilə oxuyan molla,
Sən demə, var imiş rüşvət dində də?
Fırıllaq mollalar, işbaz hacılar,
Dünən də var idi, var bu gündə də.

Bu gün mollaların doxsan faizi,
Xalqa kələk gələn falçı, cadugar.
Bu təzə əsr də ayıltmıb bizi,
Yenə o Nəsrullah, Məstəli şah var.

Yenə məscidlərdə nəzir qutusu,
Yenə nəzir verən avam camaat.
Molladır, axunddur kəndin lotusu,
Pak, təmiz mollalar azdır bu saat.

Molla Qəmbərqulu töküb kasaya,
Cinlə əlbir olub, üfürür suya.
Əcaib kəlmələr donquldanaraq,
Bu qız qarımışçün ər tapır guya.

Ehsanda nə yoxdur toydan beşbetər?!
Ölüm ucuzlaşıb, ehsansa baha.
Qarmonu, zurnası əskikdi yasın,
Qoy acıq getməsin sözüm Allaha.

Ehsana çəkdiyin xərcin yarısın,
Bir yardım eyləsən kasıb xəstəyə,
Vallah bir yol çəkib, bir ağac əksən,
Min rəhmət deyilər ölən kimsəyə.

Nə lazım baş daşın bürü parçaya,
Əgər qismət olsa, kəfən bəsimdir!
Bir gün bu şerimi oxuyan kimsə,
Sən mənə bir rəhmət desən, bəsimdir.

Yusifə nə lazım təmtəraqlı yas,
Yasında verməyin kivi, ananas!
Vəsiyyət eylədin, rəhmətlik oğlu?
Day bəsdir, misranın nöqtəsini bas.

***mart 2010***

# ƏZRAYILA TƏKLİF




Ey rüşvətlə sərvət yığıb,
İmarətlər tikən məmur.
Ey milətin qəmin deyil,
Özüyçün kef çəkən məmur.

Qarnın doyur, gözün doymur,
Əllərinsə yığır hala.
Bir tərəfdən yığıb nolar,
Bir tərəfdən xalqa payla.

Pul saydığın zaman birdən,
Əcəl gəlsə, neyləyərsən?
"Al pul verim" -  deyib, yəqin
Rüşvət təklif eyləyərsən!

Əzrayıldan rüşvət verib,
Can qurtarmaq olmayır.
O gələndə boş qayıtmır,
Amma rüşvət almayır.

Əylənməkçün verdiyin pul,
Bütün xalqa bəsdi vallah.
Xalqın malın xalqa sərf et,
Səndən razı qalsın Allah.
Sənə qənim olsun Allah!

***26 yanvar 2011***

## PULUN SEHRİ

Kim ki pula, vara salıb mehrini,
Əlbət, o kəs görüb pulun sehrini.

Pul tilsim, pul cadu, pul nə bilim nə,
Bir anda eyləyir "yox" cavabın "hə".

Bir eyb eyləməz ki yoxsa, qeyrətin,
Yetər ki, bol olsun varın - dövlətin.

Olsan tülki belə, şir deyəcəklər,
Qəlbin daşdı görüb, pir deyəcəklər.

Varlıdır nəzərdə ən ali insan,
Savadsız olsa da, ziyali insan.

Gətirər şahanə nüfuz pul sənə,
Aləm təzim edər, olar qul sənə.

Başı dik gəzirkən varlı peysəri,
Tökür kasıb yazıq xəcalət təri.

Sevsən, kasıb oğlan, bu qeyri - məqbul,
Leyli də, Məcnun da, məhəbbət də pul.

Yoxdursa imkanı, yoxdursa işi,
Arvadın gözündə arvaddır kişi.

Bir parça kağızsan, bir qəlpə dəmir,
Səni versəm itə, tövbə it yemir.

Gəl ki qabağında qanun da aciz!
Vallah belədir bu, “yox” desək də biz.

Pul xətm eyləyibdir çox cinayəti,
Qatil azad gəzir, verib rüşvəti.

Pul etsə qardaşı qardaşla düşmən,
Demə: - yazmamışdın bu barədə sən.

Sanma ki, qurtardı şairin təbi,
Bəsdir, uzatmayaq daha mətləbi.

Ey pul, əvvəlin nə, axırın nədi,
Yusif çox düşündü, başa düşmədi.

**12 iyun 2011**

# YOL POLİSİ MƏMİŞ DAYI




Yol polisi Məmiş dayı,
Səhər tezdən yolda durub.
Radarına düşən yoxdur,
Göz - qulağda "rul"da durub.

Budur gəlir zaporoji,
Gəlişi də bir aləmdir.
Sağa çıxır, sola çıxır,
Sürücüsü vurub dəmdir.

- Saxla görüm, zalım oğlu,
Heç özündən xəbərin yox.
Maşınında cəhənnəmə,
Şalvarında kəmərin yox.

Əlin olsun cibində ha!
Yoxsa, cibin cırığ sənin?!
Bədbəxt oğlu, day özün bil,
Onda işin fırığ sənin.

Vaaay! zapının başına daş,
Protokol yazır buna.
Beş - on manat verən kimi,
İş bağlanır çatır sona.

Budur, gələn mersedesdir...
- Saxla görüm kimsən, bala?
- Filankəsin qohumuyam,
Tanımadın məni, ala?

- Bıy, bbbağışla tanımadım,
Qadan alım sür, yeri get!
Gözlərimi bağlayaram,
Min qayda poz, min nöqsan et!

Budur gəlir " 07 "
Lap deyəsən avtoşdu bu.
Saxladanda Məmiş görür,
Avtoş deyil, sərxoşdu bu.

Buna bir söz demək olmaz,
Filankəsin gədəsidir.
Telefonda yol polisin,
Hədələyən dədəsidir.

Qaş qaralır, axşam düşür,
İş növbəsi çatır sona.
Məmiş heç nə gətirməyib,
Töhmət verir rəis ona.

Səhəri gün işdən çıxır,
Məmiş deyir: " bu iş deyil ...
Ondan pul al, bundan pul al
Yolda durub veyil-veyil".

Can, ay Məmiş, nələr çəkib,
Bu yollarda sənin başın.
Məmişi də qınamayın,
Hər "rul" tutan sürür maşın.

Lovğalanma, avtoş qaqaş,
Yatma "rul"da, sərxoş qaqaş.
Kim olsan da, qanunu sev,
Ay kəlləsi bomboş qaqaş!

***15 iyul 2010***

## KÜT DİŞ

Xalqa bəllidir işimiz,
Koorrupsiya vərdişimiz.
Öyrəşib haram tikəyə,
Halalı kəsmir dişimiz.

*19 yanvar 2010*

## DİOLOQ

*( Hadı ilə Bıdının söhbətindən)*

- Bu millət hara gedir?

- Yəqin, məntəqəyə.

- Bilmirsən, niyə?

- Depudat seçməyə.

- Namizəd kimdir?

- İbişov Məmiş.

- Seçilib kim olacaq?

- Ac görməmiş!

***28 oktyabr 2010***

# QUŞ

Quşlar cürbəcür olur...

Quş var cəh - cəh vurandır,
Quş var cikkilləyəndir.
Quş var dediyin sözü,
Təkrarlayıb deyəndir.

Quş var əti yeyilir,
Quş var əti yeyilmir.
Quş var heç quş olmağı,
El içində deyilmir.

Quş var qanadı yoxdur,
Amma göylərdə süzür.
Özü yerdə olsa da,
Adı göylərdə gəzir.

Qanadsız "quş"larımız,
Şou-biznesdə kalandır.
Hərəsi bir sənətdə -
Oxuyandır, çalandır.

Biri əldə mikrofon,
Quş kimi cikkilləyir.
Avazı yoxdursa da,
El ona: - bülbül - deyir.

Quş var özü də bilmir,
Könül quşu hardadır?
Bir gün müxalifətdə,
Bir gün iqtidardadır.

Yusif, bu "quş" dəstəsi,
Tutub düzü - dünyanı.
Quş qripi çıxsa da,
Qripləyən "quş" hanı?

Yoxdu başda huşumuz,
Uçub könül quşumuz.

***5 dekabr 2010***

## DIBIŞIN TƏƏCCÜBÜ

İnsanların gözündə,
Tamam başqalaşmışam.
Mat qalmışam bu işə,
Mən özüm də çaşmışam.

Bir məclisə gedirəm,
Hamı durur ayağa.
Mənlə salamlaşırlar,
Bir - bir gəlib qabağa.

Mənə yer göstərirlər:
"Keç, əyləş, ode, başda.
Yerini rahatlayıb,
Buyur, sən sözə başla;"

Sən də yox "siz" - deyirlər.

Ağzımdan söz çıxdımı,
Hamı qulaq kəsilir.
Mənasız sözümü də,
Çoxu mənalı bilir.

Heç nə başa düşmürəm,
Qəribədir doğrusu.
Məni bir vaxt sayanlar,
Kənddə toyuq oğrusu,
İndi mənim haqqımda,
Başqa cürə danışır:

"Dıbışla fəxr edirik,
Onun dalınca düşüb
İrəliyə gedirik.
Amma qovlamırıq, ha,
Nə də tovlamırıq, ha!"

Məni çox düşündürən,
Evdəki vəziyyətdir.
Bunu danışmağımsa,
Özü bir əziyyətdir.

Əvvəllər evimizdə,
Gündə düşərdi dava.
Bir dəfə də başıma,
Vurmuşdu arvad tava.
İndisə başqa cürdür,
Evdəki ab-hava.

Çöldən evə gəlirəm,
Arvad qucur boynumu.
Amma əvvəl deyirdi:
"Qurd yesin bu qoynumu".

Mənə qoyun demir ki,
İndi "aslanım" - deyir.
Gəl, toyuq qızartmışam,
Gəl, tez ye, canım, - deyir.

Çoxlu salam gətirir,
Uşaq dərsdən gələndə.
Hələ hey çözməkdəyəm,
Bu salamları mən də.

Suallar da başımda,
Mıxlanıbdı beynimə.
Gah yük olur boynuma,
Gah yük olur çiynimə.

Axı niyə belədir?
Başqa insan olmuşam?

Güzgünün qabağında,
Hey baxıram özümə.
Baxıram qulağıma,
Gah baxıram gözümə.

Yenə fikirləşirəm...

Bax bu bir neçə gündə,
Nə dəyişibdi məndə?

Heç yerim dəyişməyib,
Nə boynum yoğunlamıb,
Nə də qarnım şişməyib.

Bu boyda hörmət olar?
Bu boyda izzət olar?

Yenə tapa bilmirəm!

Birdən gəlir ağlıma,
Səbəb budur nağlıma.

Arifəm, bir baxışla,
Tükü - tükdən seçmişəm.
Hörmətli səbəb budur,
On beş - on altı gündür,
Vəzifəyə keçmişəm.

***16 aprel 2011***

## HƏKİM

Baş həkim, ayaq həkim,
Uy həkim, oyaq həkim.
Nə baxırsan cibimə?
Vermişəm bayaq, həkim.

***11 sentyabr 2011***

## XARAKTER

Sədəqə verəndə canımız çıxır,
Rüşvəti ürəklə veririk, amma.
Yaxşılıq etsək də, şöhrət üçündür,
"Şöhrətçün etmirik" - desək, inanma!

***14 aprel 2012***

## MİLLİ SÖYÜŞ

*( filankəsin dilindən )*

Mən ki, öz millətimin milliliyin saxlamışam,
Mənim hər gün dilimə əlli söyüş doğmalaşır.
Nə zaman xalqı söyək, milli söyüşnən söyürük,
Hər söyüşdən yana, bir milli söyüş doğmalaşır.

***aprel 2012***

## ŞƏKİL

Ay vəkil, şəkil vəkil,
Başında kəkil vəkil.
Seçilincən üzdə ol,
Seçildin əkil, vəkil.

***mart 2011***

## ŞƏN QOYUN

Ay kefi kök, şən qoyun,
Qoyunluqda ən qoyun.
Nədən susub dinmirik,
Sən qoyunla mən qoyun?!

## BACARSAN

Göz görür, dil danışır, cəncələ baş düşmüş olur,
Görmüsən, görməmiş ol, söyləmə nöqsanı, yaşa.
Fələyin çərxi əgər tərsinə dövr eylərsə,
Sən də gəl dal - dalı gəz, tərsinə dövranı yaşa.

***24 aprel 2012***

## "CƏH-CƏH", "CİK-CİK"

Cikkilləyən sərçəyə,
vurulduq "bülbül" - deyə,
amma bilmirəm niyə?!
Bilməsəm də niyəsin,
bunu dəqiq bilirəm,
hələ seçə bilmirik,
"cəh-cəh"lə, "cik-cik" səsin!

***3 may 2010***

# MÜĞƏNNİ MƏTİŞ

*(satira-həcv)*



Hər yerə dırmaşıb doldu müğənni,
Bizim məmləkətdə boldu müğənni.
Mətiş də bu halı görüb durmadan,
Ərindən boşanıb oldu müğənni.

Dodağın bəyəndi ulağın Mətiş,
Uzatdı o cürnə dodağın Mətiş.
Yan ətin kəsdirib yamatdın üzə,
Əntiqə plastik calağın, Mətiş.

Bir göbək oynatdın, dedilər: "halal",
Oxudun fanaqram, oldu hamı lal.
Avaz nə lazımdı müğənnilikçün,
Əsas vid - fasondu, sən də seksual.

Çıxdı jurnallarda lüt şəkilləri,
Sponsur Məmişlə cüt şəkilləri.
Səninlə fəxr edir ellər, ay Mətiş,
Şikilin əllərdə gəzir elləri.

Necə gəldi geyin, de: “imicdi bu” ,
Millət səni sevir, deməz gicdi bu.
Yanında bir uşaq gördüm efirdə,
Yəqin, sponsurdan olan bicdi bu.

Balam, nə sirdirsə, axır ucaldın,
Millətin qəlbində yurd - yuva saldın.
Burcuda - burcuda, səsin yoxsa da,
Təbrik eyləyirəm, fəxri ad aldın.

Mətiş, bax fanatın doğrusun desin,
Sözüm nahaqdırsa, haqqı söyləsin.
Sən də xalq artisti, layiq olan da,
Şair partdamasın, şair neyləsin?!

***29 aprel 2011***

## HACI MİRİŞ DEYİR Kİ,

Məşədiyəm, Hacıyam,
Mən bu elin tacıyam.
Heyif bir eyibim var,
Bir az dili acıyam.

Öz xeyrimi güdürəm,
Biznesmenlik edirəm.
Bundan savab iş hanı?
Hər il Haca gedirəm.

Verdiyimi yetimə,
Yedirdərəm itimə.
Bu deyilmi savab iş?
Demirəm ki, yetim, şiş.

Şəhər dolu gözəl, ah!
Necə salmayım tamah?
Əşi, fani dünyadı,
Ölüb gedəcəm sabah.

Yaşım ötüb yetmişi,
Əldən qoymam o işi.
Çənəsi bağlanıncan,
Kefdən qalmasın kişi.

Ləzzətdi, daddı siğə,
Həm də rahatdı siğə.
Neynirəm evlənməyi,
Nə yaxşı zaddı siğə!

Sahildə bağım gözəl,
Bağda otağım gözəl.
Çöldə yatan var, şükür,
Mənim yatağım gözəl.

Namazım taraz deyil,
Qıldığım namaz deyil.
Düzdü, savabım azdır,
Günahımsa az deyil.

Mersedesim, hammerim,
Yoxdur ki dərdim - sərim.
O dünyada bilmirəm,
Burda cənnətdir yerim!

***7 yanvar 2011***

## KATİBƏ İLƏ MÜDİRİN DİOLOQU

*Müdir - X*
*Katibə - Y*

**Katibə:**

Müdir, müdir, ay müdir,
Süzüm sənə çay, müdir.
Qızın ilə yaşıdam,
Məni qızın say, müdir.

**Müdir:**

Gətir mənə çay, gözəl,
Gəl yanıma, ay gözəl.
Qızım zadım deyilsən,
Məni yarın say, gözəl.

**Katibə:**

Dən düşübdü qaşına,
Mən gəlirəm xoşuna.
Özümdən utanıram,
Baxanda mən yaşına!

**Müdir:**

Bu fikirdən daşınım?
Yaşımdanmı yaşınım?
Axı kimdən əskikəm?
Marka - marka maşınım!

Gəl yanıma, pişiyim,
Gəl mən də bir kişiyim.
Ağlını yığ başına,
Villam, evim - eşiyim.

**Katibə:**

Sevir kim ki, bekardır,
Günü də ahu - zardır.
Əşi, düz deyirsən e,
Əsas dövlətdi, vardır.

Ofisin, otağın var,
Bahalı yatağın var.
Min cavandan əlasan,
Hər yerdə bir bağın var.

Nə namus, saxla məni,
Müdir, sevdim eee səni!

***5 yanvar 2011***

# XİYAR



Gir bostana bax, tağda var,
Həm dərədə, həm dağda var,
Həm solda var, həm sağda var,
    Hər tərəfdə vardı xiyar,
    İndi populyardı xiyar.

Yoğun da var, nəzik də var,
Çürük də var, əzik də var,
Müştəriylə dolub bazar,
    İndi alır hamı xiyar,
    Biz nə yesək, tamı xiyar.

Qurtarmamış al xiyarı,
Yetişməmiş, kal xiyarı.
Bax, al orjinal xiyarı,
    Çünki olur saxta xiyar,
    Rezin xiyar, taxta xiyar.

Alma ətin xəstə quşun,
Yaxın qoyma yoluxmuşun.
Soxuşdurma soluxmuşun,
        Çək bizimçün taraz xiyar,
        Bir az kələm, bir az xiyar.

Bostandan bulub səni,
Mağazadan alıb səni,
Bankələrə salıb səni,
        Eylədilər tutma xiyar,
        Çıx bankədən, yatma, xiyar.

İnsan girir dondan - dona,
Oxşayır xiyar da ona.
Şellənib dedim ki, Cona:
        "Çox tamlıdır bizim xiyar",
        Güldü, dedi: "Özüm xiyar".

Xiyar, xiyar, yaman xiyar,
Tutdu bizə divan xiyar.
Arakelnən İvan xiyar,
        Etdi girov, əsir bizi,
        Qoydu aləm - yesir bizi.

Bostan xiyar bostanıdır,
Bizim yerlər ünvanıdır.
Xiyarların dövranıdır,
        Mən bu halda, kefdə xiyar,
        Yeyir - içir müftə xiyar.

Vəd verdi gəlməmiş dayı,
Yəni seçilməmiş dayı.

Seçiləndən Məmiş dayı,
Bizlər üçün alır xiyar,
Azı beş il qalır xiyar.

Mənliyimiz çilik-çilik?
Qalmadı bizdə millilik?
Biz hamımız bir zibilik?
Ağlayan, gülən də xiyar?
Sən də xiyar, mən də xiyar?

***21 noyabr 2009***

## DƏBDƏN DÜŞÜB

Keçmiş bir sabahdı, hər kimsə qansa,
Görər həqiqəti yatan oyansa.
Toyda, restoranda uymuşuq dansa,
Zurna dəbdən düşüb, tar dəbdən düşüb.

Başqa xəyaldadır həm oğlan, həm qız,
Məcnuna, Leyliyə çoxdu qoyan "mız".
SMS çıxandan eşqimiz cılız,
Sevgi dəbdən düşüb, yar dəbdən düşüb.

Məhsul götürmürük torpağımızdan,
Seçilmir bağımız boz dağımızdan.
Meyvə dərmirik ki, öz bağımızdan,
Ananas dəbdədir, nar dəbdən düşüb.

Kasıb natiq ola, yenə də laldır,
Dövlətli nə desə, şəkərdir, baldır.
Yenə insanlığın qiyməti puldur,
Yusif, bircə demə var dəbdən düşüb.

***28 mart 2011***

# BİZDƏN - BİZƏ

Gəldi mesaj bir dəfə tezdən bizə,
Eyləmişik nömrəni "bizdən - bizə".

Durmadan hər gün ya "vzv", zəng gəlir,
Şeytanımızdan, cinimizdən bizə.

Bəlkə də, bir nöqsanımız qalmayar,
Olsa, əgər təsiri sözdən bizə.

Axşamı zülmət çökəcək, şam da yox,
Bəllidir artıq bu günüzdən bizə.

Rəngimiz ağdır, günümüz qarədir,
Neqırı bənzətdilər üzdən bizə.

"Düz danışan düzdə qalır" - söylədik,
Əyrilik də başladı "düz"dən bizə.

Böylə deyirlər Xəzərə: "mavidir",
Fayda nədir mavi dənizdən bizə?

Sahilə getdim, balığı səslədim,
Sən düşəcəksən - dedi - sizdən bizə.

Molla qoyub məktəbə "dərs" öyrənib,
Şıllaq atır eşşəyi mizdən bizə.

Eşşəyi hər kəs tanıyır, Yusifa,
Çox danışma eşşəyimizdən bizə.

*17 fevral 2011*

## SƏMİMİ ETİRAF

Namizəd olan vaxtı,
Düşünürdüm millәti.
İndisə seçilmişəm,
Yadıma düşmür qəti,
Xalq nədi, millət nədi.

Öz dərdim özümə bəs,
El dərdin çəkmək əbəs.

Dərdim başımdan aşır,
Özgənin dərdin çəkmək,
De, harama yaraşır?

Dərdim dağdan böyükdür,
Çiynimdə ağır yükdür.
Xalqın dərdinə bir bax,
Küçələr zibillidir,
Yola asfalt döşənmib,
Palçıqlıdır, lillidir,
Binada lift işləmir,
Su turbası çürüyüb,
Kanalzasiya tutulub,
Binanı iy bürüyüb…

Əşi, bunlar dərddimi?
Siz bilmirsiz dərdimi!

Şəhərin mərkəzində,
Hələ ev almamışam.
Dincəlməkçün Dubayda,
Bir həftə qalmamışam.

Oğlum göz yaşı tökür:
“Mənə bahalı maşın...”.
Dostlarının yanında,
Qaldıra bilmir başın.

Dənizin kənarında,
Dəbdəbəli villam yox.
Düşünürdüz dərdsizəm?
Dərdim hamınızdan çox.

Neçə - neçə dərdimi,
Gətirmirəm dilə mən.
Necə qayğı göstərim,
İndi deyin Elə mən?

Sözü bütöv depudatam,
Mən demişəm, deyəcəm,
Bu beş ili, a millət,
Özümçün işləyəcəm.

***28 oktyabr 2010***

## YAŞA, DÖVRAN

Yaltaqları çəkdin başa, dövran, yaşa, dövran,
Həq söyləyəni bas daşa, dövran, yaşa, dövran.

Hinduşka verən fitvaya şahin kəsilərmiş,
Ördəklər olub xan, paşa, dövran, yaşa, dövran.

Ceyran yarışır boz qoduğumnan çata bilmir,
Lap çatsa, gedirlər qoşa, dövran, yaşa, dövran.

Bir söz danışım mən sənə məstan pişiyimdən,
Quyruq bulayır day mışa, dövran, yaşa, dövran.

Laylay dedilər millətə uyqu şirin oldu,
Baybay dedilər yatmışa, dövran, yaşa, dövran.

Yusif danışar çoxları söylər: “bu nə sözdür?!” ,
Gəlmirsə, bu sözlər xoşa, dövran, yaşa, dövran.

***13 aprel 2011***

## SARIYIR BİZİ

Könüldən bağlanıb gör ona millət,
Adın da dəyişib, qoyubdur hörmət.
Əcəb vəfalıdır atsaq da, rüşvət
Sağ olsun axtarıb - arayır bizi.

Əşi, söhbət eylə bulvardan, zaddan,
Bir yeni imicdən, bir yeni moddan.
Ehtiyat eyləmə qonşudan, yaddan,
ATƏT gəlir - gedir, qoruyur bizi.

Gözünə döndüyüm nə vardı, yedi,
Hamı çəpik çaldı, heç kəs dinmədi.
Burnunda danışan bir vəkil dedi:
-Xalq özü seçibdir, tarıyır bizi.

Yusif dövr eyləyir düz orbitində,
Kədər çevrəsində, söz orbitində.
Dünya fırlandıqca öz orbitində,
Fələk barmağına sarıyır bizi.

***2 aprel 2011***

## ŞOU – BİZNES

*Şou-müğənni kimi tanınmaq istəyən Gülüş xanıma*

Sən ekrana çıxsan,
Ay qız, sənə millət,
"Ulduz" deyəcəkdir.
Baxsın sənə afət,
Səntək geyəcəkdir.

Lazım deyil əsla,
Bülbül kimi cəh - cəh.
Çıx səhnədə burcud,
Xalqın deyəcəkdir:
"Əhsən sənə, bəh - bəh!".
Sən də heç utanma,
Ay arsız, ay əbləh,

Çıx səhnəyə çılpaq,
Oynad, göbək oynad.
Sən qeyrisinə bax,
Böylə qazanıb ad.

Bizlərdə, gözəl qız,
Səsdən də əzəl, qız,
Ən vacib odur ki,
Saz görkəmin olsun.
Vacib deyil əsla,
Ay zil, bəmin olsun.

Lazım deyil, ay qız,
Zərrə arın olsun.
Cəhd eylə, ol arsız,
Dar paltarın olsun,
Yaxud da soyun gəz.

Razrezli tuman gey,
Yandan cırıq olsun.
Dar minisə yubkan,
Daldan yarıq olsun.
Get saxla dieta,
Bizlərdə müğənni,
Mütləq arıq olsun.
Çünki kökələrsə,
Var böylə güman ki,
İşlər fırıq olsun,
Kök burcuda bilmir.

Bax, böylə səbəbdən,
Və həmdə ki, dəbdən,
Bir xeyli müğənni,
Nazikdi, kökəlmir,
Yəni cana gəlmir.
Birdən cana gəlsə,
Ekranə o gəlmir.

Şou - biznesə gəl bax,
Gör orda nələr var.
Qızlar necə çılpaq,
Qıztək gədələr var.
Millət ora vurğun,
Çün cazibələr var .

Boş gic - gici söhbət,
Söhbət nədi, qeybət!

"Düzdür bu subaydır,
Amma "ər"i vardır.
Ünvanı Dubaydır,
Ay can, yeri vardır!"

Şou - biznesə gir sən,
Məşhuri - cahan ol.
Şou - biznesə girsən,
Ev, həm maşın, həm pul.

Birdən çaşıb, ay qız,
Segah oxuyarsan,
Dəstgah oxuyarsan...
Sən rüsvay olarsan,
Böylə ad alandan,
Sonra vay olarsan,
Yəni zay olarsan.

Rok musiqi bəslət,
Keyfin, məzən olsun.
Qəlb oynadan olmaz,
Yan tərpəzən olsun.

Azad vətənin var,
Azadsan özün də.
Əla bədənin var,
Ceyran, sən ucaldın,
Millətin gözündə.
Çünki sənə "qurban",

Ar yoxdur üzündə.
Bir məna da yoxdur,
Kəlməndə, sözündə.

Beş günlük həyatdır,
Şellən, bala, şellən.
Sən məşhur adamsan,
"Ulduz" "xala", şellən.

Xalqın sənə heyran,
Silkon dodağın var.
Sən xalqına qurban,
Villan, otağın var,
Məxmər yatağın var.
Super hamam imiş,
Hər gün qonağın var.

Bizlər bu zamanda,
Torpaq gedən anda,
Olduq səsə vurğun,
Biz, hər kəsə vurğun.

Seçdik SMS-nən,
Bax böylə həvəsnən,
Qoyduq ara bir quş.
Biz, dərdi unutduq,
Qoyduq ora bir quş,
Həm də bura bir quş.

Quşlar belə çoxdur,
Çoxdur, sayı yoxdur.
Quş qripi çıxıbdır,
Vaksin tap, a doxdur.

Quşdur, buna bir bax,
Neyçün belə çılpaq?
Canın azar almış?
Almış ki, saralmış,
Bax rəngi də solmuş,
Yəqin yaşa dolmuş.

Quşlar belə quşlar,
Ay xəstə, naxoşlar,
Hər kəs sizə vurğun,
Ellər sizi xoşlar.

Neyçün biz, a millət,
Bərbad günə qaldıq?!
Arsızları sevdik,
Sevdik və toraldıq.

Aç gözvü nəzər sal,
Lap həddin aşıbdır,
Ey vay, daraşıbdır,
Ekranlara səylər,
Həm açıq göbəklər.
Bir sözlə, bu Yusif,
Qəmgin belə söylər,
Söylər belə, bəylər :

-Şair qəmə batmış,
Zənn eyləmə yatmış.
Bir gün görəlimmi?
Öz xalqın oyatmış!

Xalqım kimə vurğun,
Röyalı və yorğun.
Röyadan ayılmaz,
Lap olsa da qırğın!

Məncə, bu yerişnən,
Vay! qaçsa dayanmaz,
Röyadan oyanmaz,
Röyadan oyanmaz!!!

***25 dekabr 2009***

## DİLLƏŞMƏ

***Şaqqulu*** *- məmurdur.*
***Şahsənəm*** *- Şaqqulunun arvadıdır, özü də dindardır. Hər gün evlərində söz-söhbət olur. O səhnədən bir parça...*

**Şaqqulu:**

Pah atonnan, hər gecə vaqqıldayır,
Ölməli arvad necə vaqqıldayır?!

**Şahsənəm:**

Gör, nə bəsləyir meşə çaqqalını?
Bəsdi, yığdığın yetər el malını,
Eylə tövbə, çox azmısan yolunu.

**Şaqqulu:**

Vəzifə, sərvətdi mənim sevdiyim,
Manatdı, rüşvətdi mənim sevdiyim,
Bir gözəl afətdi mənim sevdiyim,
Hər gecə işrətdi mənim sevdiyim,
Hər günorta ətdi mənim sevdiyim,
Nə bilsin arvad nədi saydıqlarım,
İrsən özümdən sora qoyduqlarım,
Sus, arvad, danışma, kopolun qızı,
Oğluma ibrətdi mənim sevdiyim,
Sanma ki, millətdi mənim sevdiyim,
Ardı nə qeyrətdi mənim sevdiyim.

**Şahsənəm:**

Az xoruzlan, ay kişi, arvadına,
Nakişi, bir xalqı da sal yadına.

**Şaqqulu:**

Elçün ağlayan gözü kor görmüşəm,
Ağlamayan gözdəsə nur görmüşəm!

***7 may 2011***

## KEF EYLƏ

Səni kürsü dəyişdi,
Vardan, puldan pozuldun.
Əvvəl belə deyildin,
Dayı, daldan pozuldun.

Əyləşəndən kürsüyə,
Qonşun çıxıb yadından.
Rüşvətxorluq təlimin,
Öyrəndin ustadından.

Mənsəb verilən kimi,
Yığdın elin malını.
Daha fikirləşmədin,
Qabağını, dalını.

Dövran başçı seçibdir,
Toyuqlara tülkünü.
Tale özü bəxş edib,
Sənə vətən mülkünü.

Nuş elə, dayım mənim,
Öküzüm, ayım mənim.

Get xaricdə kef eylə,
"Dünya mənimdir" - söylə.

Get Parisə, Pekinə,
Alma xalqı ......

*23 may 2011*

## QOYUN



Qoyun, səni vəzifəyə qoysalar,
Könlün arpa istəyər, de, yoxsa, qoç?
Ac olanda məncə, arpa istəyər,
Arzulayar qoyun əgər toxsa, qoç.

Sənə "quzu"- dedik, körpə yaşında,
Ha bəslədik payızında, qışında.
Qoyun, qalmaz qoyun ağlın başında,
Cazibədar bir baxışla baxsa, qoç.

Qoyun var ki, iki ayaq, bir başı,
Dörd ayağın, bir başın var, ay qoyun.
İnanmırsan heç inanma, özün bax,
Əgər hesab bilirsənsə, say, qoyun.

İrsən keçib, qoyun, sənə qoyunluq,
Sən çəkmisən eynən öylə babana.
Bir az otun, alafun var, qudurub
Heç baxmırsan boz itə, nə çobana.

Vaxt var idi, Yusif səni otarıb,
Gəzdirirdi bu dağları, düzləri.
Nə var, nə var kökəlmisən azacıq,
İndi adam saymırsan heç bizləri.

Çəmənlikdə görüb növ - növ otları,
Düşünürsən: "hamı mənim olaydı".
Canavarın dişi batmaz day sənə,
Elə sənə qəssab qənim olaydı.

***19 iyun 2011***

## BEZƏN DƏ VAR

Mizrab teldən umur nəsə,
Dodaq dildən umur nəsə,
Əl də əldən umur nəsə,
Uman varsa, küsən də var.

Vicdanlarmı natəmizdir?
Sual çətin, çox qəlizdir.
Həyat dərin bir dənizdir,
Batan da var, üzən də var.

Qalstuklu, yoğun gədə,
Kresloda, vəzifədə.
Yaltaq oğul, yaltaq dədə,
Yaltaqlardan bezən də var.

Yaxşı azdır, yaman çoxdur,
Yamanlara sözüm oxdur.
Qanmayana sözüm yoxdur,
Düzə dodaq büzən də var.

Yusif haqqı deyən zaman,
Kinli - kinli süzən də var.

*7 noyabr 2011*

# VƏTƏN

Oralı - buralıyıq, biz, hərbi xidmətdə də,
Axı nədən bu qədər ağılı çaş - başıq biz?
Vətən bizim anamız, biz vətənin övladı,
Deməli, yad deyilik, doğmaca qardaşıq biz.

Torpağın yetirdiyi, hər gülünü sevirsən,
Gül hamını məst edir, gözəl təravətində.
Ayağına batsa da, qırma tikan kolunu,
Çünki o tikan  bitib, sənin məmləkətində.

Mən sevirəm o kəsi, torpağını sevəndir,
Mən sevirəm o kəsi, bayrağını sevəndir.

Mən sevirəm o kəsi, dövlətə sevgisi var,
Nifrət o vətandaşa, rüşvətə sevgisi var.

Atma vətən eşqini, ürəyindən, əzizim,
Demə filankəsə bax, sərvətini taladı.
Talamağa qalanda, vecə alma sərvəti,
Yağı düşmən hammızın, qeyrətini taladı.

Xalqın malın yığanın, Allah evin yıxacaq,
O kəslərdən əvəzin, bu dünyada çıxacaq.

Vətənə bəsləməz ki qəlbində yetən eşqi,
Silinməzdir Yusifin qəlbindən vətən eşqi.

Vətən mənim anamdır, sevmək borcum anamı,
Yaşayaraq vətənə, verməliyəm canımı.

***17 sentyabr 2011***

## BAKI

Xarici qonaqları,
Bakımız heyran edir.
Hər tərəf abadlaşır,
Hər gün qızğın iş gedir.

Yatmayır gecə - gündüz,
Məmurlar çox əlləşir.
Onların sayəsində,
Bu şəhər "gözəlləşir".

Gəl yubanma, sevgilim,
Gedək gəzək Bakını.
Çölü bəzək olan bu,
İçi təzək Bakını.

Gözəlləşir Bakımız,
Özəlləşir Bakımız.

*yanvar 2012*

## ZAMAN, BAĞIŞLA

Nə yaxşı çalçağır, şou verlişləri,
Nə yaxşı dərdləri ovutduran var.
Yurdun dərdi nədir, qatıb başmızı,
Bu yurdu bizlərə unutduran var.

Bağışla, Qarabağ, sən Allah bizi,
Dalbadal seçirik "Toylar kral"ı.
Bir gün məmləkətə kral seçəndə,
Qorxuram olmasın kral buralı.

Millət ac olsa da, kefi dəf kimi,
Amma qədrin bilmir kaman, dəfinin.
Mənalı  şeirə qulaq asan yox,
Gənclik alqışlarla ardınca gedir,
Düşük meyxanalar müəllifinin.

İndi şairlər də dəyişib tamam,
Bəlkə, bu səbəbdən şeir oxunmur?
Haray şairimiz saray şairi,
Xalqının dərdinə niyə toxunmur?

Yazmır bacarsa da, sözün düzünü,
Edir həqiqətə naz şairimiz.
60 yaşında sevgidən yazır,
Romantik oğlandı baz şairimiz.

Yazır pərvanəyəm, bülbüləm, nəyəm,
Belə şəmin sönsün, gülün qurusun.
Bu köhnə sözlərlə zəhləmi tökmə,
Bir az vətəndən yaz, dilin qurusun!

Nazirə bir misra yaza bilməyən,
Allahı canına qənim eyləyir.
Ələ salmaq ilə şeirdə Haqqı,
Bu üslub yenidir, ”mənim”- söyləyir.

Nə isə... Şairlə tək iş bitməyir,
Həvəs yox nə şerə, cəngiyə indi.
Yəqin ki, zamanın tələbidir bu,
Ehtiyac duyuruq çəngiyə indi.

Bağışla, bağışla, zaman, bağışla,
Sənin nə günahın, sən neyləyəsən?!
Ağzın yox, dilin yox, dinib bir kərə:
“A qeyrət, cındırın çıxıb” - deyəsən.

Başımız üstündə rusun deyil ki,
Fəxr edək özmüzün bayrağımız var!
Buna da min şükür, qoruya bilsək,
Hələ 80 % torpağımız var!

***7 iyul 2012***

# VƏZİFƏ

Yaltaqların, alçaqların həyatda,
İnsanlığa qiymətidir vəzifə.
Rüşvətxorun, müftəxorun, el malın,
Talamağa fürsətidir vəzifə.

Tox nə bilir biri toxdur, beşi ac,
Mərhəmət yox, insaf yoxsa, nə əlac?
Aslanları lal eyləyir ehtiyac,
Dovşanların cürətidir vəzifə.

Vəzifədir onun gözünün nuru,
Vəzifəsiz bir ağacdır o, quru.
İşdən çıxdı kimdi sayan məmuru?!
Hara getsə, hörmətidir vəzifə.

***2010***

## "SADƏ" TANIŞIM

Boynunda qalstuk, maşından düşüb,
Yanımdan salamsız ötən tanışım,
Vəzifə nə yaman dəyişib səni,
Sənə kimdən deyim, nədən danışım?

Qonşumuz Məmiş də o boz eşşəyin,
Hərdən bu məhlədən çullayıb keçir.
Məmiş salam verib, hal - əhval tutur,
Boz eşşək qulağın sallayıb keçir.

Hər kəs sadə gəzib, sadə dolanmaz,
Bunu bacarmağı asan bilmə sən.
Var - dövlət, vəzifə qudurdan kəsi,
Eşşəkdən rütbəli insan bilmə sən.

***avqust 2010***

# YALTAĞIN OĞLUNA NƏSİHƏTİ

Yaltaq ol, oğlum,
Olar çörəyin.
Yaltaqlıq sənin,
Hər an gərəyin.

Atana bir bax,
Başı keçəldi!
Sən də sabunlan,
Gir necə gəldi.

Bədbəxtdir o kəs
Ki, ar ondadır.
Kim yaltaqdısa,
Pul - var ondadır.

Kim nə deyirsə,
Özüyçün deyir.
Yaltaq olmayan,
Şor - çörək yeyir.

Yaltaqlan, bala,
Nə mənəviyyat.
Belə şeyləri,
Bir dəfəlik at.

Kim boyun əymir,
Onundu dərdlər.
Çox əzab çəkir,
Həyatda mərdlər.

Bir məndən soruş:
“Neyçün, dədə, sən
Neçə illərdir,
Vəzifədəsən?”

Rezin çubuqtək,
Elastikəm mən.
Bu gün əyilləm,
Sabah dikəm mən.

Yaltaq ol, oğlum,
Atana çəksən,
Sən ömür boyu,
Gün görəcəksən!

***20 iyul 2010***

## KEÇMİŞ MƏMURUN VƏZİFƏYƏ KEÇMİŞ OĞLUNA NƏSİHƏTİ

Ay mənim gözəl oğlum,
Əyləş burda gəl, oğlum.
Bizə çay versin ana,
Bir qulaq as atana.

Gəz gündə bir maşında,
Şellən cavan yaşında.
Dincəlmək istəyəndə,
Otur xalqın başında.

Həyat sevməz mərdini,
Çox sevər namərdini.
Get şəkildən-zaddan çək,
Çəkmə xalqın dərdini.

Vəzifə kor bulağın,
İşçilər də ulağın.
İşi düşən kasıbdan,
Rüşvət al, “kəs qulağın”.

Diskoteka, bar sənin,
Neçə gözəl yar sənin.
Nə millət, keyfini çək,
Beş gün ömrün var sənin!

Nədir əziz pul kimi?
Pul var, həyat bal kimi.
Ye xalqın malın, şişirt
Qarnını motal kimi.

Əlil dərman hayında,
Ye qaçqının payın da.
Oğul kəlpeysər olsun,
Piy bağlasın boyunda.

Oğul, nə deyim sənə?!
Bir sözlə, oxşa mənə.
Əcəl çıxar axırma,
Bunu yaddan çıxarma;

Gərək xalqın dalından,
Əskik olmasın təpik.
Xalqı təpikləməsən,
Çalmaz səninçün çəpik.

***10 yanvar 2011***

# Sevgi və digər mövzularda yazılmış şeirlər

# İNSAN BU DÜNYADA HƏR ŞEYDƏN BEZİR

Sevda dənizində fırtına qopsa,
Aşiq də sevməkdən yorula bilir.
Səni dəli kimi sevən bir gözəl,
Sabah başqasına vurula bilir.

Sevgi də, nifrət də unudulandır,
Sevinc də ötüşür, qəm də ötüşür.
İnsan bu dünyada hər şeydən bezir,
Hətta yaşamaq da gözündən düşür.

Şair də yaxşısın axtarır sözün,
Şeri yox, ilhamı sevəsən gərək.
Bir gözəl görəndə qamaşır gözün,
Rəsmi yox, rəssamı sevəsən gərək.

Bir rəssam olasan bu bacarıqda;
Çəkəsən sevincin, qəmin şəklini.
Baxasan, doyasan, bəyənməyəsən,
Cırasan çəkdiyin həmən şəklini.

Bir şair olasan şeir yazasan,
Şeir sevdiyinin xoşuna gələ.
Sənin bu halına gülən kəslərin,
Elə bu sevgidən başına gələ.

Bəstəkar olasan, sənin musiqin,
Olduqca romantik, sevilən olsun.
Onu dinlədikcə vəfasız gözəl,
Başını itirsin, saçını yolsun!

Həyatı sevdirə bilmədi heç nə,
Ölüm necə nazlı, necə incədi!
Ölmədən yaşamaq, yaşayıb ölmək,
Bax, belə bir həyat ürəyimcədi!

Sevgi də, nifrət də unudulandır,
Sevinc də ötüşür, qəm də ötüşür.
İnsan bu dünyada hər şeydən bezir,
Hətta yaşamaq da gözündən düşür.

***2013***

## YAŞA BU ÖMRÜ

İnsansan, keçirmə günü gülməmiş,
Hər şeyə baş qoşma ötür bilməmiş.
Çalışaq, zövq alaq əcəl gəlməmiş,
Günahdır yaşamaq boşa bu ömrü.

Cəhd eylə, yıxılma, çatan yox dada,
Səni kimdi salan yıxılsan yada!
Qəmdən azad eylə qəlbi dünyada,
Sevin, şadlıq eylə, yaşa bu ömrü.

Görəsən, paklıqda su saf, sevgimi?
Ya rəb, məndən alma bu saf sevgimi.
Bir budaqda əsən cüt yarpaq kimi,
Yar ilə bir vuraq başa bu ömrü.

Güvən fərmanında Adil Hakimə,
Səbəbsiz o verməz cəza heç kimə.
Allah ilham verə Yusif Nazimə,
Şeirlə çağlayıb, çoşa bu ömrü.

***5 oktyabr 2012***

## VİDA

Təzə açılıbdı kolda görmüşəm,
Nazik əllərimlə özüm dərmişəm.
Gülüm, sənin üçün gül gətirmişəm,
Götürsən də sağ ol, götürməsən də.

Vallah dəlilikdi sevgi sadəcə,
Dərdindən özgə dərd almıram vecə.
Məni xəyalına bir an, hər gecə
Gətirsən də sağ ol, gətirməsən də!

Gedirəm bu axşam vaxtı aşmağa,
Cənnət hurisinə şeir qoşmağa.
Özünü mənimlə vidalaşmağa,
Yetirsən də sağ ol, yetirməsən də!

Əziyyət verməsin mənə qəm daha,
Xəyanət etmirdim, edirəm daha.
Di, yaxşı, əlvida, gedirəm daha,
Ötürsən də sağ ol, ötürməsən də!

Sevgidir qəlbində halal sərvətin,
Gözəl, ucuz bilmə onun qiymətin.
Sən Yusif Nazimin saf məhəbbətin,
İtirsən də sağ ol, itirməsən də!

***1 may 2013***

## HƏDİYYƏ

Sevgi ruzi deyil hər kəsdə ola,
Doğrudur, onu da Allah yetirir.
Sevən sevdiyinə gül - çiçək verər,
Yusif sevdiyinə şeir gətirir.

Niyə də gətirmim, nəyi pisdi ki?
Şerimi qəlbimdən axı dərmişəm!
Sevgilim, sən məndən çiçək umursan?
Mən sənə ömürlük ürək vermişəm.

Bu ürək sənindir, özün bilərsən,
Sən onu istərsən oyuncaq eylə.
Hava çox soyuqdu, qar da yağacaq,
Üşüsən, yax - yandır, oduncaq eylə.

Nazlım, fikir vermə görüşənlərə,
Onlar bir - birinə hədiyyə alsın.
Mən kasıb oğlanam, sənə verməyə,
Baxışım ən böyük hədiyyə olsun.

Sevgi ruzi deyil hər kəsdə ola,
Şübhəm yox, onu da Allah yetirir.
Sevən sevdiyinə gül - çiçək verər,
Yusif sevdiyinə şeir gətirir.

***29 noyabr 2012***

## SON NƏFƏSDƏ

Ölürəm, ürəyim səni istəyir,
Barı, gəl görüşək bu son nəfəsdə.
Neynirəm gözündən yaş tökməyini,
Cənazəm gedəndə çiyinlər üstə.

İndi gəl, sağ ikən gəl görüm səni,
Bilirəm, gəlməyə üzün də yoxdur.
Bəlkə də, gələrdin, yəqin ki, eşqim
Məndən qabaq ölüb gözündə, yoxdur.

Necə ki həyatda yalqız dolandım,
Qəbrim də qoy olsun tək-tənha, yalqız.
Ruhum rahat olar, görsə onda ki,
Məzarım üstünə gəlmisən, ay qız!

***8 oktyabr 2010***

## SİRR

O elə bir quşdur  səmalarda ki,
O uçan zirvədə uçan olmayıb.
O elə  ceyrandır bu çöllərdə ki,
Ondan irəlidə qaçan olmayıb.

Onsuz kim yaşayar, hansı ölkədə?
O lap buludları qoyur kölgədə.
Günəş də heyrandır ona, bəlkə də,
Onun tək işıq da saçan olmayıb.

Yusifi ehtiyac gətirdi dilə,
İnciyib, qələmi götürdü ələ!
Doğulmub belə bir filosof hələ,
Pulun fəlsəfəsin açan olmayıb!

***2 mart 2013***

## NARAHAT RUH

Bir kəlmə "can" sözü eşqdir, həvəsdir,
Quruca nəfəsi bizlərə bəsdir.
O hansı varlıqdır, o hansı kəsdir,
Hər kəsin minnətsiz zəhmətin çəkir?

Etibarsız oğul, vəfasız həyat...
Tənədən bezmişdin, eh, məzarda yat!
Dünyadan köçsə də, ruhu narahat,
Ana övladının xiffətin çəkir.

Çətindir itirsə könül sirdaşın,
Yusifin kim silər axsa, göz yaşın?!
Nə yarın, nə dostun, nə də qardaşın,
Ürəyim anamın həsrətin çəkir!

***12 mart 2013***

## GƏL GÖRÜŞƏK

Yenə görüş yerindəyəm,
Yenə tənha, yenə sənsiz.
Xatirələr göz önündə,
Əzab verir mənə sənsiz.

Görüşmürük nə zamandır,
Gəl görüşək biz bir daha.
Bəsdir, yetər sadiq olduq,
Hicran adlı zalım şaha.

Gəl görüşək biz bir daha,
Həmənki vaxt, həmən yerdə.
Gəl Xəzərin sahilinə,
Gəl günorta saat birdə.

Dalğalanmır neçə vaxtdır,
Dəniz həsrət eşqimizə.
Gəl bir yerdə görüb bizi,
Dalğalansın baxıb bizə.

Bizi görüb qağayılar,
Su üzündə rəqs eləsin.
Qoşa duraq şəklimizi,
Su özündə əks eləsin.

Gəl sahildə qum üstündə,
Ürək şəkli cızaq yenə.
Adımızın baş hərfin,
O ürəkdə yazaq yenə.

Pıçıldaşan ləpələrin,
Gəl dinləyək birgə səsin.
Yadındamı çox sevərdik,
Ləpələrin zümzüməsin?

Gəl bir yerdə xatırlayaq,
Sənlə ötən o çağları.
Toxunduraq bir - birinə,
Qədəh kimi dodaqları.

Sən öpdükcə yanağımdan,
Yenə görüb “maç”larını,
Qısqanaraq dəli külək,
Qoy dağıtsın saçlarını.

Zaman, vaxtda sənin kimi,
Vəfası yox ayın, günün.
Gəl görüşək, qeyd eliyək,
Ayrılığın ildönümün.

***11 may 2010***

## "UTANCAQ" HƏRİS

Haqqı nərədə bulsun?
Özün bulmayan insan.
Həyatdan narazıdır,
Şükran olmayan insan.

Qərq olar sıxıntıya,
Düşünər itirdiyin.
Görməz, görmək istəməz,
Allahın yetirdiyin.

Geydiyi ayaqqabı,
Bahalı, çox bahalı.
Bu insanın dəyərin,
Bax, göstərir bu halı!

Sevgisi, məhəbbəti,
Eşqi dünya malıdır.
Həm də razılaşmayır -
Niyə dünyanın malı,
Dünyada qalmalıdır?!

Lüt gəlmişdi dünyaya,
Ağlı kəsməyən zaman.
Lüt getmək istəməyir,
"Utancaq" imiş yaman.

***26 yanvar 2012***

## BİLƏN OLMASIN

Ölümün cazibə qüvvəsidir ki,
Bizi tələsdirir vaxt keçirməyə.
Sən gəlmə görüşə, gəlmə, eybi yox,
Özün peşman olub deyinəcəksən:
"Kaş, mən o görüşə gələydim" - deyə.

Ölməzlik şərbətin içməmişəm ki,
Baxma bu gün həyat saxlayıb məni.
Bir də eşidərsən ölüm mələyi,
Elə günü sabah haxlayıb məni.

Ölümün cazibə qüvvəsidir ki,
Bizi hər an çəkir gora, torpağa.
Bir gün deyəcəklər: "Yusif neyləyir?"
Kövrələ - kövrələ söyləyəcəksən:
"Bilmirəm, tapşırdıq qara torpağa".

Qəbrimin üstündə bitən ot deyil,
Dərdimdir, göyərib ota bənzəyir.
Yağış damcıları baş daşım üstə,
Sırayla düzülən nota bənzəyir.

Yuxuna gəlmişəm, bir sirr açmağa,
Bunu səndən başqa, bilən olmasın.
Ruhum qəbrim üstə güllər əkibdir,
Sən də göz yaşınla sula, solmasın!

***24 aprel 2012***

## NUR

Sənə söz yazıram, Ya Rəsulallah,
Adınla şerimi bəzəmək üçün.
Sənin şəxsiyyətin tərifə sığmaz,
Bəşər idrakıyla deyil bu mümkün!

Onun sevgisiylə yoxluq içində,
Sən bütün varlığın nüvəsi oldun!
Adəmdən başladı tərtəmiz soyun,
Haqqın yer üzündə haqq səsi oldun!

Müşriklər önündə dəf edilməyən,
Ən möhkəm mətanət sahibi Sənsən!
Sənin könül gözün pərdəsiz, aydın,
Ən yüksək fətanət sahibi Sənsən!

Sən bizə öyrətdin nifrətlə deyil,
İnsana sevgiylə qalib gəlməyi!
Yetimin başını sığallamağı,
Məzlumun gözünün yaşın silməyi!

Səni Nur yaratdı Uca Yaradan,
Odur ki, cismin də kölgəsiz oldu!
Qurani - Kərimlə sübut eylədin,
Allahın varlığı "bəlkə"siz oldu!

Elə Sevgilisən, hicrində, Ey Gül,
Xurma kötüyü də göz yaşı tökdü!
Ondan ayrılınca dözə bilmədi,
İnlədi, zarıdı, ah - nalə çəkdi!

Sular göyə qalxır Mahmud eşqilə,
Məhəmməd eşqilə enir torpağa!
Sənin məhəbbətin saraldıb onu,
Baxıb, utanıram sarı yarpağa!

Sirətin elə pak, elə nurludur,
Gözəllik simanda, surətindədir!
Gecələr Ay gəzir, gündüzlər Günəş,
Hər şey Kainatda həsrətindədir!

Meracın misilsiz bir möcüzədir,
Göylər fəxr eylədi gəlişin ilə!
Dodağın tərpənib diş görününcə,
Aləm işıqlandı gülüşün ilə!

Əzrayıl izninlə canını aldı,
Beləcə, ən böyük şərəfə çatdı!
Sən olan ürəklər geniş Kainat,
Sən olan könüllər yalnız rahatdı!

Mən kiməm, Ya Əhməd, nə qüdrətim var?
Səni vəsf eləyib Yaradan Özü…
Bu şeri yazmışam mükafat üçün,
Sənə layiq deyil Yusifin sözü.

Qəlblər natəmizdir, vicdanlar kirli,
Pak etməz dənizlər, yağışlar bizi!
İnşallah mükafat bu olar, O gün
ALLAH  Sənə xatir bağışlar bizi!

*28 mart 2013*

## NECƏ BİTƏR

…kədər bitər, sevinc başlar,
sevinc bitər, kədər başlar…
…gələr başlar, gedər başlar…
Dünyadı bu!
Olan yoxdur,
Olmayan var –
Röyadı bu!
Qalan yoxdur,
Qalmayan var –
Mənadı bu!
Sevməyənin gözlərindən
gülüş saçar,
sevənlərin gözlərində
nəmlər qalar.
Şadlıq gedər, qəmlər qalar –
Sevdadı bu!
…səhər açar, gecə bitər…
Qəribədir!
Biz bilmərik həyatımız
necə bitər!

***1 avqust 2013***

## SADƏLİK

Buludun da görəvi var,
Günə sadəlik öyrədib.
Yoxsulluq da bir ustaddır,
Mənə sadəlik öyrədib.

Bir şeirdir hər dərd - ələm,
Mən şairəm, bunca nə qəm?!
Mindən sonra gələn rəqəm,
Minə sadəlik öyrədib.

Mərhəmətli könül gülər,
Hər zaman şükranlıq elər.
Ürəklərdə pak sevgilər,
Kinə sadəlik öyrədib.

Haqqa gedir hər gedən yol,
Yusif, çalış, düz yolu bul.
O həyata minnətdar ol,
Sənə sadəlik öyrədib.

***23 mart 2013***

## SÖNMÜŞ OCAQ

"Məni əvvəlki kimi sevmirsən", - deyə gileylənirsən
yenə bu axşam.
Bax, giley - güzarından bir cümlə də xatırladıram…
- Bizi görən sevgili sanmaz!
- Anlamırsan ki, yanan kül olur,
kül isə bir daha yanmaz.
Və mən Günəş deyiləm !

***19 iyul 2013***

## YAXŞIDIR

Ətri, gözəlliyi olmayan gülü,
Elə xəzan vursa, solsa, yaxşıdır.
Vətənin sevməyən bir vətandaşın,
Fələk başına daş salsa, yaxşıdır.

Hər kəsin aslıdır işi həyatdan,
Minindən öyrənir beşi həyatdan.
Həyat bir məktəbdir, kişi həyatdan
Kişilik dərsini alsa, yaxşıdır.

Aqil heyran olur sirrə, mənaya,
Cahil gözüyumlu baxır dünyaya.
Qəm şerə çevrilir, kədər misraya,
Şair xəyallara dalsa, yaxşıdır.

Vurğunu deyiləm quru səslərin,
Boş əyləncələrin, boş həvəslərin.
Ağzı qızıl dişlə dolu kəslərin,
Kəlməsi qızıldan olsa, yaxşıdır.

Bilməm qəm içində, ya kefdə gedər,
Yardan sonra gedər, ya süfdə gedər!
Bir gün əcəl gələr, Yusif də gedər,
Sözü bu cahanda qalsa, yaxşıdır.

*1 sentyabr 2011*

## SƏBƏBSİZ DEYİL

Həyat qəribədir, baş açmaq olmur,
Onun qonağıdır yaxşı da, pis də.
Bu gün çiyni üstə tabut aparan,
Sabah özü gedir çiyinlər üstə.

Ağılın gözüylə seyr et aləmi,
Çox hikmət görərsən bu cür baxanda.
Canlı var boğulur suya düşəndə,
Canlı var boğulur sudan çıxanda...

Qışda çılpaq olan ağaca bir bax,
Yazda çiçəkləyib yaşıl don geyir!
Bu boş yerə deyil, ağac bizlərə:
"Ölümdən sonra da həyat var" - deyir!

Ey insan, şüurun var, azacıq düşün,
Hər şeydə bir məna, bir hikmət axtar.
Bil ki, yaradılış səbəbsiz deyil,
Necə ki binanı tikən bənna var...

Dərk eylə dünyanın faniliyin sən,
Barı, yaxşılıq et çalış dünyada.
Bu yolla rəğbətin qazan Allahın,
Çatar axirətdə bu əməl dada.

***oktyabr 2010***

## YA RƏB, ŞÜKÜR VERDİYİNƏ

Sanma kefdən şeir yazdım,
Buna səbəb qüssə - qəmdir.
Mən ki, dərddən ilham aldım,
Dərd də başqa bir aləmdir.

Hansı dostun, hansı yarın,
Kədər kimi vəfası var?
Qəmin də bir gözəlliyi,
Qəmin də bir səfası var.

Niyə dərddən gileylənim?
Allah verib dərdi mənə.
Odur bilən ürəkləri,
Yəqin, rəva gördü mənə.

Ömrün qəmli günlərini,
Elə bilmə hədər oldu.
Biz Allahı unudanda,
Xatırladan kədər oldu.

"Bu millətin dərdin mənə, -
Yusif deməz, -"verdin niyə?"
Ya rəb, şükür verdiyinə,
O kimdir ki, bir söz deyə!

***25 sentyabr 2011***

# BİZİM DƏ QİSMƏTİMİZ BU

Ayrıldıq! Bizim də qismətimiz bu...
Kimisə günahkar bilmək nə lazım?
Deyirsən: "bu həsrət yaşatmaz məni",
Yaşamaq lazımdır, ölmək nə lazım?

Ağlayıb, sızlayıb, töküb göz yaşı,
Sən bu ayrılığa yas tutacaqsan.
Xəyalım itəcək başından, məni
Bir müddət keçəcək, unudacaqsan.

Bir gün rastlaşanda mənim, bəlkə də,
Verdiyim salamı almayacaqsan.
"Kim idi bu salam verən?" - düşünüb,
Heç məni yadına salmayacaqsan.

Evdə yoldaşınla mehribançılıq,
Körpələr başını qatacaq sənin.
Günbəgün çoxalan, artan qayğılar,
Yusifi qəlbindən atacaq sənin!

***4 iyul 2011***

## NƏ OLAR?!

O qəmli günləri, o şən günləri,
Biri bir ömrə o tən günləri,
Yadıma salmasam ötən günləri,
Və yaxud yadıma salsam nə olar?!

Sıxıb sinəsinə bir əl sazını,
Gözəl sənətkarın gözəl sazını...
Alıb Əzrayıldan əcəl sazını,
Özüm öz havamı çalsam nə olar?!

Dünya sirləriylə edib lal məni,
Gəl bu səssizlikdən acil al məni.
Yaman düşündürür bu sual məni,
Ölsəm nə dəyişər, qalsam nə olar?!

Yenə də bir kəsəm heç kim olmasam!
Özüm öz təbimə hakim olmasam,
Təkcə Yusif olsam, Nazim olmasam,
Ya da Yusif Nazim olsam nə olar?!

***18 dekabr 2013***

# MƏNƏ YARAŞMIR

Mənə "rədd ol" demə, kobud sözdü bu,
Sən incə gözəlsən, sənə yaraşmır.
"Rədd ol" kəlməsinə rədd olmaq isə,
Ürəkdən sevirəm, mənə yaraşmır.

Ulduzlar sayrışır, bu nə haraydır?
Sənimi gördülər, bu naz nə paydır?
Gecələr səmanın gözəli Aydır,
Gecə parıldamaq Günə yaraşmır.

Getmədi zəhmətim hədər, gözəlim,
Qazandım eşqindən kədər, gözəlim.
Məncə, naz eyləmək yetər, gözəlim,
İndi naz eyləmək yenə, yaraşmır.

Eşqində öyrəndim aşiqliyi mən,
Eşqi Allah verir, qürrələnmə sən.
Səndən əvvəl sevdim sadiqliyi mən,
Vəfasız olmaq da paltar kimidir,
Sənə yaraşsa da, mənə yaraşmır.

*4 may 2012*

## BƏYAZ QAN

Övlad can verərmi ana yolunda?!
İstərəm belə bir gözəl ölməyi.
Bilsəm ki, dərdimi çəkməyəcəksən,
Dilərəm, mən səndən əzəl ölməyi.

Səndən qabaq ölsəm, sənin ömrünə,
Anacan, bilirəm zəhər qataram.
Dərdimdən yanarsan - Yusifim! - deyə,
Mən isə məzarda rahat yataram.

İnsanlıq öyrəndim mən səndən, ana,
Sevmirəm qəlblərə qəm əkməyi mən.
Məndən qabaq alsın Allah canını,
İstəməm sinənə dağ çəkməyi mən.

Zalım olmuşamsa, məni bağışla,
Anacan, halal et bəyaz qanını.
Ruhum ağrıyanda mən hardan tapım,
Laylanı – ruhumun o dərmanını?!

***10 oktyabr 2012***

## SÖHBƏT

Yenə təbim gəldi, yenə bu axşam,
İlham pərisiylə söhbət eylədik.
Yenə bu dünyadan, yenə fələkdən,
Bir az gileylənib qeybət eylədik.

Varımız görünməz gözə yox kimi,
Azımız görünür bizə çox kimi.
Sözü hədəfinə vurduq ox kimi,
Şairik deyibən cürət eylədik.

Adi bir söz imiş, demə, ləyaqət,
Hanı bəs insanlıq, hanı ədalət?
Yusif təbrik edir səni, a rüşvət,
Adını dəyişib, hörmət eylədik.

Zaman ömrümüzü talayan oğru,
Bizi torpaqlara qalayan oğru.
Hər gün yol gedirik Allaha doğru.
Bu gün də bir qədər yol qət eylədik.

***28 sentyabr 2012***

## AĞLAMAQ DA GÖZƏLDİR

Nə çəkirəm ürəyimdə, anlayan yox, bilən yox,
Üzü dönsün ehtiyacın üzümüzə gülən yox,
Ağladıqca ağlıyalım göz yaşını silən yox,
Göz yaşını silən varsa, ağlamaq da gözəldir!

Rüzgar döyür qapımızı ondan başqa gələn kim?
Qəlbimizə yara vuran, bağrımızı dələn kim?
Haqlı yerə öldürən kim, haqsız yerə ölən kim?
Biz, insanıq, qəlbimiz var, anlamaq da gözəldir.

Bu dünyanın parasına könlümüzü vermədik,
Nə paranın cibimizə sevgisini görmədik.
Biz, şairik, yaltaqlıqla ömrümüzü sürmədik,
Dərdin özün sirr olaraq, saxlamaq da gözəldir.

Şair, nədən fikirlisən, çatılıbdır qaşların?
Başda olan haqsızların yerə soxum başların.
Bu mədəsi doluların, bu ürəyi boşların,
Hərdən sözlə ürəyini oxlamaq da gözəldir.

Bacardıqca bu həyatın gülmək lazım üzünə,
Fələk ki, var, dik baxasan gərək onun gözünə.
Yusif, çox da fikir vermə onun - bunun sözünə,
Dost, qardaşı çətin gündə yoxlamaq da gözəldir.
Göz yaşını silən varsa, ağlamaq da gözəldir!

***26 noyabr 2012***

# QARABUĞDAYI AŞİQ

...Mənə söylədin ki: "çox qaralmısan",
Bu sözə yuxudan qəfil oyandım.
Məni qızmar günəş qaralda bilməz,
Eşqim alovlandı, "hisə boyandım".

Dünyada əzəldən belə olubdur,
İnsan dustaq olur cinayət üstə.
Dünyanın yeganə məhkumusan ki,
Dustaqsan qəlbimdə məhəbbət üstə.

Səni Allahımdan çox düşünürəm,
Bilirəm düz deyil, günah edirəm.
Gözümün önündən çəkilməyirsən,
Mən hara baxıram qarşımda sənsən,
Əyilib götürəndə nəyisə yerdən,
Önündə səcdəyə sanki gedirəm.

"Şair doğulmuşam" - desəm, düz olmaz,
Bəlkə də, eşqinlə şair olmuşam.
Mələk olmağına şübhəm var bir az,
Bəlkə də, şeytansan, "kafir" olmuşam.

Allah gözlərini nurlu eyləsin,
Məndən özgəsinə aşiq olmasan.
Görüm məhəbbətim gözündən gəlsin,
Qədrimi bilməsən, sadiq olmasan.

***10 iyul 2012***

## QƏNAƏT OLMAYANDA

Kim deyir ki, məhəbbətə kədərdir?!
Kədər, dərd də çəkilməli qədərdir.
İnsanları vəhşilikdə betərdir,
Bu dünyada məhəbbət olmayanda.

Bəzən nifrət məhəbbətə çevrilir!
Söz və əməl sədaqətə çevrilir.
Sədaqət də xəyanətə çevrilir,
Sevən kəsdə ləyaqət olmayanda!

Sevən gərək sevdiyindən yarısın,
Gözəl odur, gözəl qalıb qarısın.
Gözəl gərək ismətini qorusun,
Gül də heçdi təravət olmayanda.

Baxışına qurban olum göz eylə,
Yetər daha danışdığın göz ilə,
De, sevirəm, de, utanma, ay gözəl,
Gözəlləşir həyatımız söz ilə,
"Sevirəm"ə qənaət olmayanda.

Qəlbimizin qapısını min şükür,
Eşq elçisi asta - asta döyərmiş.
Sevirsənsə, bəxtəvərsən, qəm nədir,
Bu dünyada yaşamağa dəyərmiş!

***27 iyul 2012***

# KAŞ

Gərək özgələr kimi,
Eşqi oyun sanaydım.
Yanınca istisində,
Şaxtasında donaydım.

Deyəsən, yavaş - yavaş,
Sənin qəlbin olur daş.
Ağcaqanad olub, kaş,
Dodağına qonaydım!

Sorub dodaq qanını,
Of, üzəydim canını!
Çəkincə hicranını,
Bir tonqalda yanaydım.

Məni yada salaydın,
Xəyallara dalaydın.
Mənə aşiq olaydın,
Sevdiyimi danaydım.

Sevdiyimi deyəndə,
Səndən söyüş "yeyəndə",
"Sevmirəm" - söyləyəndə,
Mən sənə inanaydım.

Yusif  də bir gözəldən,
Yazır şeir, qəzəldən.
Bu məhəbbət əzəldən,
Mənlik deyil, qanaydım.

*4 avqust 2012*

## SEVGİM

Mən səni sevirəm sevdiyim qədər,
Demirəm bu sevgim o dağ boydadır.
Hər görüş bir az çox sevirəm səni,
Təzə tanışlıqdır, yeni sevgidir,
Hələ ki bu sevgi uşaq boydadır.

Sevirəm, olarmı qəlbimə qəm yük?
Qəm qəlbə həm hakim, olarmı həm yük?
Demirəm: "bu sevgim dünyadan böyük",
Səni düşündüyüm otaq boydadır.

Biz tanış olanda yaz səhəriydi,
Bir mələküzlünün naz səhəriydi,
Təbim belə deyir: "yaz səhər idi",
Yazıram o hisslər varaq boydadır.

Aydınlı gecədə üzümüz aydın,
Yerdə bir az qar var, izimiz aydın.
Maşallah, gözəlim, gözümüz aydın,
Böyüyüb sevgimiz, o dağ boydadır.

***3 iyul 2012***

## YAŞIM ÇATMIR

Mən kimin yadına düşürəm guya,
Sənin də yadına düşüm, ay gözəl.
Bircə unutmayıb Əzrayıl məni,
Ona da qurbandır başım, ay gözəl.

Ürək düz eyləmib seçim, ağlayır,
Boyuna sevinc də biçim, ağlayır!
Üzdə ağlamıram, içim ağlayır,
Axmır gözlərimdən yaşım, ay gözəl!

Kül mənim başıma sevmişəm səni,
Min nazın bir qəmə dəyməzmiş yəni.
Necə xoşun gəlsin sevəsən məni?
Gəlmir özümdən heç xoşum, ay gözəl.

Səni tanımadım dünən görəndə,
Məndən gileylənib qınama sən də.
Təqsir özündədir lap incisən də,
Qalıb ki, başımda huşum, ay gözəl?

Yəqin, zənn etdin ki, Yusif həməndi.
İllər ötüb - keçib dönmüsən indi.
Düşündün, deyərəm: - qəlbim sənindi?
Ta çatmır sevməyə yaşım, ay gözəl.

*15 avqust 2012*

## YAZAN DEYİLƏM

Neyləyim, mənim də bacardığım bu,
Qəmlə həmdəm olub şeir yazıram.
"Mən özüm yazıram" - desəm, düz olmaz,
O ilham pərisi deyir, yazıram.

Gəl, qəmdən danışım sənə, ay gözəl,
Həm özün sevdirir, həm naz eyləmir.
Mən necə sevməyim səndən qəmi çox,
Qəm özün sevdirir, qəm naz eyləmir!

Bəs sən neyləyirsən? Özündən razı,
Özünü qoymusan dağın başına.
Mənim də sinəmdə ucadı dağlar,
Nədənsə gəlməyir sənin xoşuna.

Eləsə, sən məndən şeir istəmə,
Mən sənə bir misra yazan deyiləm.
Əgər sevgin ölsə, dəfn eyləməyə,
Sinəmi bir qarış qazan deyiləm.

Ölən məhəbbətin basdırmaq üçün,
Dedilər: "sevgilin qəbir axtarır".
Yusif bu xəbərdən düşüb çöllərə,
Ağıllı çöllərdə səbir axtarır!

*15 avqust 2012*

## EY ƏDAVƏT

Bu vətəndə doğulmuşam,
bu vətənin havasın udub,
suyunu içmişəm.
Yemək üçün bu vətənin
torpağından cücərən
zəmisini biçmişəm.
Nə olsun?
Kimin xəbəri var sabahından?!
Bəlkə, ömrüm bitəcək,
mənim qərib bir eldə!
O yerin adamlarına
"Bu tabutu qaldırın" - deyəcəklər
mənim sağlığımda anlamadığım
yad  bir dildə.
Kim bilir!
Bəlkə də, mənim qarışdığım torpaq,
olmayacaq vətən torpağı.
Özümə vətən sayımmı,
həmən torpağı?
Hansı torpağı?
Bilmirəm ki!
İndi şeir yazıram,
ölmürəm ki!

Heç kəs məndən inciməsin,
mənə satqın söyləməsin.
Mənə "Vətən xaini",
ya "namussuz" deməsin.

Mən şairəm;
Dünya mənim vətənim,
İnsanlıq milliyyətim,
Vicdan isə dinimdir.
Vaz keçilməz bircə bu,
Dilim - ana dilimdir.

Mənim məktəbim həyat,
müəllimim səbirdir.
Eh! bu siyasətçilər,
insan donuna girmiş,
"fağır" tülkü və yırtıcı bəbirdir.
Hanı ədalət?
səndən soruşuram,
ey ədavət !!!

***16 avqust 2012***

## VAXT

Zaman gedişində yubanacaqmı?
Əzrayıl işindən usanacaqmı?
Saatlar bir saat geri çəkildi,
Ömür bir dəqiqə uzanacaqmı?

*28 oktyabr 2012*

## BAĞÇA

Həyat gözəl olur xəyal içində,
Ürək arzularla dolu boxçadır.
Əgər niyyətimiz paksa, təmizsə,
Arzular boxçası güllü bağçadır.

*27 oktyabr 2012*

## İTİRSİN

Uçsun tikdiyin ev, daşın itirsin,
Qiymətli üzüyün qaşın itirsin.
Sən çəkmə dünyanın dərdini,Yusif,
Qoy dünya dərdindən başın itirsin.

*19 oktyabr 2012*

## FİKİR VERMƏ

Göz yaranıb görmək üçün,
Meyvə bitir dərmək üçün.
Kim nə deyir vermə fikir,
İt yaranıb hürmək üçün.

***11 oktyabr 2012***

## ÇƏKMƏ

Çəkmə sabahının gecə dərdini,
Çəkmə ev dərdini, küçə dərdini.
Sən öldün, dərdini çəkən tapılmaz,
Alma bu dünyanın vecə dərdini.

***19 oktyabr 2012***

## İSTƏMƏDƏN

Nə zaman ki, özünlə tək qalırsan,
Xəyal qurub tez fikirə dalırsan.
Həyat sənə göstərəndə sərt üzün,
İstəmədən əyilməli olursan.

***30 oktyabr 2012***

## QƏLƏT

Gözdən yaş axanda belə, gülürdüm,
"Sevinc yaşlarıdır" - deyib, silirdim.
Cinsin olmasa da bəlli bizlərə,
Ey Fələk, mən səni kişi bilirdim.

*30 oktyabr 2012*

## İNCİMƏ

Alımmı hər şeyi vecə inciyim?
Ya gündüz barışım, gecə inciyim?
Ruhum da cismimi atıb gedəcək,
Vəfasız kimsədən necə inciyim?

*19 sentyabr 2012*

## SƏN

Yenə yuxumda sən, xəyalımda sən,
Mənə gərək olan bu halımda sən.
Sevincim, şadlığım, dostum da sənsən,
Düşmənim, kədərim, məlalım da sən.

*25 sentyabr 2012*

## İZ

Sənin yanağında dodaq izləri,
Zənnimcə, sevgimin möhür yeridir.
Ağlıma cürbəcür fikirlər gəlir,
Nə bilim! Bəlkə də...
Şəhər yeridir!

*18 sentyabr 2012*

## GÜNAHKAR

Bəzən elə sözlər eşidir insan,
Kar olmaq istəyir düşündükcə kar!
Eşitmək qulağın işidir, insan,
Qulaqmı günahkar, sözmü günahkar?

*18 sentyabr 2012*

## VƏFALI

Gəmi batmış isə, bərəyə dönməz,
Qurd tutan qoç belə, sürüyə dönməz.
De, kimdir vəfalı əcəldən özgə?
Hər kəs atar gedər, geriyə dönməz.

*7 noyabr 2012*

## BİR ÖMÜR

Bir can daşımaqda insan bir ömür.
Çırpınır qəfəsdə hər can bir ömür,
Ya gedib dayanır, ya gəlib bitir,
Hər nəfəs bir andır, hər an bir ömür.

*8 sentyabr 2012*

## YAŞA

Əzrayıl etməmiş talan ömrünü,
Cəhd eylə, xoş yaşa qalan ömrünü.
Gəz, dolan, bir gözəl sev, əylən, amma
Çalış, doğru yaşa yalan ömrünü!

*18 oktyabr 2012*

## GÜZGÜ

Məndən çox axtarıb, arayacaqsan,
Sən mənsiz qocalıb, qarıyacaqsan.
Mərmər baş daşıma düşəcək əksin,
Baxıb, saçlarını darayacaqsan!

*3 iyul 2012*

## SANCAQ

Sancmısan elə bil yaxama sancaq,
Görən heç sevərmi? Bir "cin" sanacaq.
Sənə xəyanət də eyləmiş olsam,
Sənə bənzərini öpərəm ancaq.

***3 iyul 2012***

## İZN VERMƏRƏM

Xoşlamam gözəlim saçın hörməyin,
Sevirəm güllərə gül su verməyin.
Qəlbimdən çıxmağa izn verməərəm,
Qısqancam, istəməm kimsə görməyin.

***5 iyul 2012***

## DUSTAQ

Sənin etibarın, sədaqətin bu,
Mənim məhəbbətim, ləyaqətim bu!
Qəlbimdə dustaqsan bir ömür boyu,
Özünü sevdirdin, cinayətin bu!

***5 iyul 2012***

## GÖZLƏR

Gözünü sevdirdi mənə gözlərim,
Həmdəm belə olar, yenə gözlərim!
Gecə yatmamışam, yorğun olsa da,
Baxdıqca, dincəlir sənə gözlərim.
Çox baxa bilmirəm, amma nədənsə,
Sanki nəzər salır günə gözlərim.

***1 avqust 2012***

## İNSANAM

Var - dövlətlə yarışmayan insanam,
Arsızlara qarışmayan insanam.
Həyat məni çox sıxacaq, çünki mən
Haqsızlıqla barışmayan insanam.

***8 avqust 2012***

## BİR DƏFƏ

Can qurban etmərəm canana bir də,
Qəsd edən deyiləm mən cana bir də.
Könül birin sevər, sevər bir dəfə,
Mən gələn deyiləm dövrana bir də.

***10 avqust 2012***

## BAXSIN

Dillər söyləməmiş sözünə baxsın,
Ayaqlar getməmiş izinə baxsın.
Güzgü qarşısında özünə vurğun,
Vicdan güzgüsündə özünə baxsın.

*10 avqust 2012*

## ÇÜNKİ

Üzün dəyişsə də, nazın həmənki,
Vurğunam səsinə danış ki, din ki.
Səni həm də sevir niyə bu Yusif ?
Vətən torpağısan sonunda, çünki.

*10 avqust 2012*

## UNUDULMUŞ

Mən ölsəm nə şəmtək əriyəcəksən,
Nə dərddən almatək çürüyəcəksən.
Demə ayrılığa dözə bilmərəm,
Qırxca gün ağlayıb, kiriyəcəksən.

*11 avqust 2012*

## TƏNHA QƏBİR

Qəmlərə qərq olub, gülməyəcəksən?
Başqa sevda nədir, bilməyəcəksən?
Dəfnimdən bircə il ötdümü artıq?!
Sən heç qəbrim üstə gəlməyəcəksən.

*11 avqust 2012*

## VƏFALI

Yağışlar vəfalı, sellər vəfalı,
Küləklər vəfalı, yellər vəfalı.
Səndən, ay sevgilim, vəfalı imiş,
Qəbrim üstə bitən güllər vəfalı.

*11 avqust 2012*

## GÜLƏN DEYİLİK

Çoxdu günahımız bilən deyilik,
Onsuz axirətdə gülən deyilik.
Gül, ey qaşqabağın sallayan insan,
Bir də bu dünyaya gələn deyilik.

*13 avqust 2012*

## GƏLDİK

Gəlmədik ağlayaq, gülməyə gəldik,
Gəlmədik bilməyək, bilməyə gəldik.
Ölümdən bu qədər qorxuruq niyə?
Biz ki bu dünyaya ölməyə gəldik!

***13 avqust 2012***

## TƏZAD

Ürək döyündükcə ömürdən sayır,
Ötən xatirələr ömrü oxşayır.
İnsan yaşamaqçün ölmək istəmir,
Lakin ölmək üçün ömür yaşayır.

***13 avqust 2012***

## ETİRAF

Bu dünya hikmətdir, sirri dərindir,
Sirriylə büsbütün sevənlərindir.
Şirinsən, şəkərsən, gözəlim, ancaq,
Səndən, düzün deyim, yuxu şirindir.

***13 avqust 2012***

## ????

Dünya boş qalmasın deyə doğulduq?!
Yoxsa, bu dünyaya yiyə doğulduq?!
Nolardı, yaxşı, bəs doğulmasaydıq?!
Ölüb gediriksə, niyə doğulduq?!

***14 avqust 2012***

## ARZU

Arzumuz da quşa dönüb uçdu ki!
Apardı qonşunun göyərçinləri...
Qəlbimizdir arzuların yuvası,
Yuvasına qayıdanda çin olar!
Arzum uçub gözləyirəm, belə ki,
Qonşu qızı quş uçurdur hələ ki!

***16 avqust 2012***

## QIŞ GECƏSİ

Vəfasız, istəsən min bir hiylə qur,
Daha qəlbim səndən məhəbbət ummur.
Bütün sular donur, qışda bəs niyə,
Mənim yanağımda göz yaşı donmur?

***18 avqust 2012***

## QİSAS

Torpağa çevrilib, çökərəm yerə,
Sevgini qəlbimdə əkərəm yerə.
Dünya oxun versə bircə gün mənə,
Fələyin gözlərin tökərəm yerə.

***21 avqust 2012***

## CƏNAZƏ

İndi mən də gördüm, bir gün görmərəm,
Görərlər axındı qəbristanlığa.
Qıymaram qolunuz yorula, dostlar,
Evimiz yaxındı qəbristanlığa.

***26 avqust 2012***

## QOVĞA

Həmişə qohumla, yad ilə deyil,
Bəzən öz - özüylə dalaşır insan.
Ömür yollarında hər addım başı,
Günah tozlarına bulaşır insan.

***1 sentyabr 2012***

## İSTİQAMƏT

Ha özümü ovuduram!
Ha ölümü unuduram!
Mən hayana üz tuturam,
Əcəl mənə tərəf gəlir.

*24 noyabr 2012*

## ƏHSƏN O ŞƏXSƏ

Əhsən o şəxsə ki, nəfsi toxdur o,
Bu dünya malına kölə, qul deyil.
Anlamaq istəmir nədən adamlar?
Pul həyat olsa da, həyat pul deyil.

*28 yanvar 2012*

## FİLOSOF

Dərdə könül bağla, fikirdən əl çək,
Qovrulub, ah çəkib, eyləyincə, of!
Həyatdan yaşamaq öyrənə bilsən,
Sənsən böyük alim, böyük filosof.

*28 yanvar 2012*

## TƏZƏ İLHAM

İndiki şairlər qəmi sevməyir,
Yəqin, ilhamlar da təzələnibdir.
Dünya mənim kimi neçə şairə,
Qəmi sevdirərək, məzələnibdir.

*31 mart 2012*

## GÖZÜMÜZ AYDIN

Bizim söhbətimiz, sözümüz aydın,
Alnımız açıqdır, üzümüz aydın,
Necə sevinməyək, gözümüz aydın,
Qəmin qəlbimizə gözü düşübdür!

*23 aprel 2012*

## AĞACIN HİSSİ

Özün xoşbəxt hiss edir, ağac bar gətirəndə,
Bilir boş yaradılmıb, o, fayda verməlidir.
Ya onun kölgəsində  oturub dincəlməli,
Ya onun meyvəsindən bir kimsə dərməlidir.

*13 may 2012*

## DƏRDİMİZ

Sevincə qısqancdı, sərtdi dərdimiz,
Bizə sədaqətli, mərddi dərdimiz.
Dərddi sevincimiz, dərddi dərdimiz,
Dərd ola bilməz ki, dərdimiz kimi!

***aprel 2012***

## ŞÜKR SƏNƏ, EY İLAHİ

Şükür sənə, ey İlahi, şükür sənə gözüm tox,
Ruzimizdə bərəkət var, o səbəbdən azım çox.
Filankəsin maşını var, qəm etmirəm mənim yox,
Filankəsin ayağı yox, sevinirəm mənim var!

***30 aprel 2012***

## AYAQ VƏ FİKİR

Zahirdə belədir ki, salamatdır ayağım,
Dolanıram, gəzirəm, şükür, məni aparır!
Batində ayaq deyil, fikir başda olsa da,
Bədən başı gəzdirir, fikir məni aparır!

***27 fevral 2012***

## QƏMSİZ YAŞAMAQ

Qəlbin gözü parlaq, özü qəmlər çəkən olmuş,
Şair görəni baxsa da, hər kəs görə bilməz.
Şükr eyləginən, Yusifa, dərdin - kədərin var,
Qəmsiz yaşamaq şairə ilham verə bilməz.

*28 avqust 2011*

## QİYMƏT

Kasıblıq lal edir, sıxır insanı,
Ehtiyac qul edir mərd bir oğlanı.
Sən demə, olmasa pulu, imkanı,
İnsan ucuzlaşar, qiymətdən düşər.

## MƏHƏBBƏT

Nifrəti öldürmək, kini öldürmək,
Qorxmayın, insanlar, cinayət deyil.
Qoruyaq, İNSANLIQ unudulmasın!
Bu bir yalvarışdır, şikayət deyil.

*14 may 2012*

## BAŞIN QİYMƏTİ

O baş düşünmürsə sirri, hikməti,
Bir qozdan ucuzdur onun qiyməti.
Qoz da faydalıdır çürük olmasa,
Saf qozla bərabər tutmaram qəti.

*16 may 2012*

## YENİLİK

Molla həmən molla, aş dəyişibdir,
Tale həmən tale, daş dəyişibdir.
Bu millət yenilik eşqinə düşdü,
Fikir dəyişmədi, baş dəyişibdir!

*29 noyabr 2012*

## DƏYİŞDİK

Atəş həmən atəş, közü dəyişdik,
Ürək həmən ürək, üzü dəyişdik.
Bu nə cür inkişaf, düşün, vətəndaş?
Baxış köhnə baxış, gözü dəyişdik!

*29 noyabr 2012*

## ƏZİZLƏ

Ayrılsaq, qədərlə barışmalıyıq,
Hökm taleyinsə, qaçılmaz olur!
Bu gün sev, əzizlə məni, sevgilim,
Sabaha güvənmə, açılmaz olur.

***21 oktyabr 2012***

## ƏZİZLƏNMƏK

Əcəldən nə fayda, sən möhlət istə,
Vaxtın çatıbdırsa, deməz "baş üstə".
Sağ idim, bir ləçək verən yox idi,
Öldüm, qəbrim üstə gül dəstə - dəstə.

***29 dekabr 2012***

## YOXLUQ

Mən yoxam bir sevinc, bir qəm də yoxdur,
Mən yoxam yara yox, məlhəm də yoxdur.
Yoxamsa, deməli, aləmçün yoxam,
Yoxamsa, mənimçün aləm də yoxdur.

***3 yanvar 2013***

## TIQQILTI

Hərə bir cür qismətin, bir cür ağlın sahibi,
Allah kimə nə qədər nə veribsə, bəsidir.
Divardakı saatın tıqqıllayan əqrəbi,
Əzrayılın atının, sanki ayaq səsidir.

***16 yanvar 2013***

## QORXU

Özümə gah doğma, gah yad insanam,
Gah qəmli insanam, gah şad insanam.
Qanundan, qınağdan qorxusu varsa,
Kim deyə bilər ki, azad insanam?

***15 yanvar 2013***

## GƏRƏKSİZ

Baxışa məhəbbət, telə məhəbbət,
Dodağa məhəbbət, dilə məhəbbət...
Məni sevməyənin dərdindən ölmək?
Mənə gərək deyil belə məhəbbət!

***13 fevral 2013***

## HƏMDƏM

Həmdəm o kəsdir ki, bilib dərdini,
Dərdinə gülməsin, nə güldürməsin.
Dərdindən ölənin dərdindən öl ki,
Səni cavan yaşda dərd öldürməsin.

*13 fevral 2013*

## XATİRƏ

Sabahın özü də bir xatirədir,
Əcəl möhlət versə, əgər açılsa.
Sabahın dərdini bu gün çəkməyək,
Çəkərik inşallah səhər açılsa...

*17 fevral 2013*

## GÖZƏL

O yoxsa, dilimiz qısadı, laldır,
O varsa, ata da oğula quldur.
Ehtiyac anlatdı bunu Yusifə,
Dünyanın ən idbar gözəli puldur.

*1 mart 2013*

## 8 MART

Gözəlim, gözümdən gözünü çəkmə,
Dinləmək istəsən lal bu sevgini.
Qızılgül almağa pulum olmadı,
Bayramın mübarək, al bu sevgini!

*8 mart 2013*

## XOŞBƏXTLİK

Günəşi batanda seyr edən gözüm,
Gülləri açanda vəsf edən sözüm
Var ikən, həyatdan  nə gileylənim?!
Dünyada ən xoşbəxt insanam özüm.

*11 mart 2013*

## AQİBƏT

Yağış həzin - həzin yağır qəbirə,
Ömür də sel kimi axır qəbirə.
İbrət alan varmı bu aqibətdən?
Hər kəs, hər keçəndə baxır qəbirə.

*12 mart 2013*

## İNSAF

Axır ac körpənin gözünün yaşı,
Ona əl tuturmu heç din qardaşı?
Məmur var, itinin günorta yemi,
Doydurar bir həftə yüz vətəndaşı.

***16 mart 2013***

## VARLI

Adam var heç kəsi yaxın qoymayır,
Adam var sözündən adam doymayır.
Varlı kasıb vaxtı adam sayılmıb,
Odur ki, varlanıb adam saymayır.

***18 mart 2013***

## BİLMƏDİK BUNU

Ac idik, qazandıq, tox olmaq üçün,
Doymadıq, topladıq, çox olmaq üçün.
Görmədik, duymadıq, bilmədik bunu,
Yox idik, var olduq, yox olmaq üçün.

***18 mart 2013***

## MƏSLƏHƏT

Babalın götürmə şeytanın, cinin,
Səncə, çox deyilmi qəlbində kinin?
Gəl, ya kef əhli ol, ya namaz əhli,
Qalma arasında, hacı, iksinin.

## SEVGİMİ?!

İşim - gücüm qalıb, qarışıb başım,
Həsrəti özümə bir iş etmişəm.
Baxsan, heç həqiqi sevgi deyil bu,
Bəlkə də, sevməyi vərdiş etmişəm.

## SEVMİŞƏM

Çox gözəl gözümdə adiləşibdir,
Səni gözəllərdən əzəl sevmişəm.
Gözəl də deyilsən gözəllərdən heç,
Sadəcə, mən səni gözəl sevmişəm.

## YETƏR

Sevən sevdiyinə qovuşan zaman,
Arada həqiqi məhəbbət itər.
Üzümdən öpməyin gərək deyildir,
Qonsun dodağına təbəssüm, yetər!

## YAŞAMAQ

Sevdiyin adamla tən yaşamaqdan,
Heç doymaq olarmı şən yaşamaqdan?!
Səninlə həyatın dadı başqadır,
Həyat səndən şirin, sən yaşamaqdan!

*8 aprel 2013*

## VAXT

Həyat başımızı elə qatır ki,
Bizim yaşamağa vaxtımız olmur.
Həyatdan hər zaman gileylənirik,
Odur ki, heç zaman baxtımız olmur!

*16 may 2013*

# Aforizmlər

İdeal kişi kinolarda olur, onu da sonda öldürürlər.

* * *

Pis xüsusiyyətlərimi nəzərə almasan, məndən yaxşısı, yaxşı xüsusiyyətlərimi nəzərə almasan, məndən pisi yoxdur.

* * *

Məhəbbətin prinsipi belədir; sən başqasını sevirsən, səni başqası sevir.

* * *

Başa kişi papağı qoymaqla deyil, gərək baş da kişi başı olsun.

* * *

İnsanların çoxu şərfin itirsə heyfsilənəcəyi qədər, şərəfin itirdikdə heyfsilənməz.

* * *

Böyük pullar ya böyük problemlərə, ya da ucuz əyləncələrə xərclənir.

* * *

İnsan ölümü tez - tez düşünəndə həyatı daha çox sevir.

* * *

Hər kəsin fikri özünə və onun kimi düşünənlərə görə doğrudur.

* * *

Dinləməklə, insan oxumaqdan çox öyrənər.

* * *

Ən bədbəxt, ən şərəfsiz insan şagirdinin uğuruna sevinməyən, ona paxıllıq edən müəllimdir.

* * *

Yaratmaq üçün yaşamaq, yaşamaq üçün yaratmaq lazımdır.

* * *

Dəyərli insanlar millətin keyfiyyətidir.

* * *

Sevməyi bacarmasan da, səni sevəni dəyərləndirməyi bacar.

* * *

Pula həris olan insanın pulunu əlindən almaq, ona həyatın ən dözülməz əzabın vermək deməkdir.

* * *

İnsana heç bir şey yaxşılıq qədər məhəbbət, hörmət qazandıra bilməz.

* * *

Biz insanları nəticəyə görə qiymətləndiririk. Səbəb isə heç kəsi maraqlandırmır. Əgər səbəbi çözsək və düşünsək, bəlkə də yaxşı insan kimi tanıdıqlarımızın pis, pis insan kimi tanıdıqlarımızın yaxşı olduğunu görərik.

* * *

Zəngin adam kasıblamadıqca ətrafındakı yaltaqları tanıya bilməz. Çünki həmişə onlardan xoş münasibət, mehribançılıq görür, tərifə layiq olmadığı hallarda belə tariflər eşidir.

* * *

Vətənə xidmət üçün vəzifə sahibi olmaq deyil, həqiqi vətəndaş olmaq lazımdır.

* * *

Bir naxır inəyi otarmaq, mənəviyyatsız kütləni idarə etməkdən çətindir.

* * *

Atı minib çox da qürrələnmə ki, atın üstündəsən, əgər at büdrəsə, altda olan sən olacaqsan.

* * *

Faydalı işlərlə dəyərli insanlar məşğul olur.

* * *

Xoşbəxt şair odur ki, onun hər dəfə yazdığı şeirinin ilk oxucusu sevgilisi olsun.

* * *

Kişilərin zəmanəsi olmur, zəmanənin kişiləri olur.

* * *

Başı dik ol, amma dikbaş olma.

* * *

Dan yeri qızaranda Günəş göz qamaşdırmır. Günəşin də parlamağına zaman lazımdır.

* * *

Qadın var ki, ona baxıb kişi olmağı öyrənərsən.

* * *

Sevildiyin qədər sev ki, sevdiyin qədər seviləsən.

* * *

Sevgilinlə həm də dost ol; sevgili kimi küsəndə dost kimi bölüşmək üçün.

* * *

Xalis adam olmayanlar da, xalis bal axtarırlar.

* * *

Övladının insanlardan qorxmamasını istəyirsənsə, ona insanları sevməyi öyrət.

* * *

Kimsə sənə baxıb gülürsə, nə sıxıl, nə də hirslən. Bir insana gülüş bəxş etmək özü bir xoşbəxtlik deyilmi?!

* * *

Cibimizdə pulumuz tükənəndə "sabah pulsuz neyləyəcəyəm" - deyə düşünürük. Amma ağlımıza gəlmir ki, bəlkə də sabah tükənən ömrümüz olacaq.

* * *

Ucuz insanlar bahalı əşyalara meylli olurlar.

* * *

Pul, insanın eyblərini örtmək üçün ən yaxşı örtükdür.

* * *

Sevmədən öncə sevilmədiyindən şikayət etmə.

* * *

İnsanlar səni özlərinə lazım olanda axtarırlar. Elə bəlkə, sən də insanları özünə lazım olanda axtarırsan.

* * *

Heç bir məhəbbət xəyanətdən sığortalanmayıb.

* * *

Həyatı başa düşmək də bədbəxtlikdir, başa düşməmək də.

* * *



**Müəlliflə əlaqə:**

E - mail: yusifnazim@mail.ru
Facebook ünvanı: http://facebook.com/mizanfisuy

*Kitabın çap olunmasında göstərdiyi maddi dəstəyə görə,*
*atama minnətdaram.*

***Müəllif***

Format: 84x108. 1/32. F.ç.v 9,25
Sayı: 500

**«OL» MMC**
AZ 1009, Bakı, Azərbaycan, M.İbrahimov 43.
Tel: 497-36-23
E-mail: olnpkt@gmail.com